

**“Korrupsiyaya qarşı mübarizə bizim prioritetimizdir”**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Strasburq, 24 iyun 2014-cü il

# ÖN SÖZ

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulmaqla həyata keçirilməyə başlanılmış, sonradan isə onun layiqli davamçısı dövlət başçısı cənab İlham Əliyevin böyük siyasi iradə, əzm və qətiyyəti hesabına inamla həyata keçirilən müdrik və uzaqgörən dövlət siyasəti nəticəsində ölkəmiz bütün sahələrdə mühüm nailiyyətlər qazanaraq sürətlə inkişaf etməkdə, daha irimiqyaslı uğurlara və əhəmiyyətli qələbələrə imza atmaqda davam edir. Ötən illərin müqayisəli təhlili qeyd etməyə əsas verir ki, ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında baş verən mütərəqqi dəyişikliklər özünü ildən-ilə daha qabarıq şəkildə göstərməklə yanaşı, yüksələn xətt üzrə inkişaf etməkdədir. Bu isə Azərbaycan Respublikasının inkişaf etmiş ölkələr sırasına daxil olmasını, onun beynəlxalq nüfuzunun artmasını, dünya dövlətləri sırasında layiqli yer tutmasını, bəşəri norma və prinsiplərə əməl edən müstəqil, sivil, demokratik və hüquqi dövlət kimi tanınmasını təmin etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 31 dekabr 2014-cü il tarixdə "Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il" münasibətilə Azərbaycan xalqını təbrik edərkən korrupsiya və rüşvətxorluğa qarşı bundan sonra da ciddi və sistem xarakterli tədbirlərin aparılacağını xüsusi vurğulaması, eləcə də 24 iyun 2014-cü il tarixdə keçirilmiş Avropa Şurası Parlament Assambleyasının sessiyasındakı çıxışında Azərbaycanın sədrlik dövründə insan hüquqları, qanunun aliliyi və demokratiyaya güclü dəstək göstərəcəyini qeyd etməklə yanaşı, korrupsiyaya qarşı mübarizənin prioritet istiqamətlərdən biri olduğunu bildirməsi bu istiqamətdə qarşımıza daha da mühüm vəzifələr qoymuşdur. Məhz bu cür yanaşma, qəti siyasi iradə son illər ərzində ölkəmizin iqtisadi və sosial inkişafını stimullaşdıran əsas amillərdən biri olmuşdur.

Ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərin nəticəsidir ki, 2014-cü il 30 iyun-1 iyul tarixlərində Bakıda Azərbaycan Respublikasının Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi dövründə Azərbaycan Hökuməti və Avropa Şurası tərəfindən Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) iştirakçılığı ilə "Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr" mövzusunda 35 ölkədən və 13 nüfuzlu beynəlxalq təşkilatdan 130-dan çox nümayəndənin iştirak etdiyi yüksək səviyyəli beynəlxalq konfrans keçirilmişdir.

Bundan başqa, ölkəmizin 19-21 noyabr 2014-cü il tarixlərdə keçirilmiş Beynəlxalq Antikorrupsiya Akademiyasına (IACA) üzv və iştirakçı ölkələrin Assambleyasının 130-dan çox nümayəndəsinin iştirak etdiyi 3-cü sessiyasına ev sahibliyi etməsi, eyni zamanda ölkəmizin nümayəndəsinin Assambleyanın növbəti ili üçün sədri seçilməsi Azərbaycanın artan nüfuzunun təcəssümü və beynəlxalq təşkilatlar tərəfindən korrupsiyaya qarşı aparılan mübarizəyə verilən qiymətin nəticəsidir.

Qeyd edilməlidir ki, son dövrlər Azərbaycanda korrupsiyaya qarşı mübarizənin daha ciddi aparılması üçün həyata keçirilmiş bir sıra mühüm qanunvericilik və praktiki tədbirlər öz bəhrəsini vermiş, ölkədə korrupsiyaya qarşı mübarizənin daha səmərəli formada təşkil edilməsinə zəmin yaranmışdır.

Azərbaycan Respublikası Prezidentinin "Prokurorluq haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunlarında dəyişikliklər edilməsi

haqqında qanunların tətbiq edilməsi barədə 17 mart 2014-cü il tarixli Fərman və Sərəncamları ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin adı dəyişdirilərək Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi adlanmış və Baş İdarə Prokurorluğun sisteminə daxil edilərək statusu artırılmaqla səlahiyyətləri daha da genişləndirilmişdir.

Bütün bunlar Dövlət başçısı tərəfindən prokurorluq orqanları qarşısında qoyulmuş vəzifələrin uğurla və daha səmərəli icra edilməsinə, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatların əsas təminatlarından olan ictimai-siyasi sabitliyin qorunmasına və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə geniş imkanlar yaratmışdır.

Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi ötən illərin ənənəsini davam etdirərək maarifləndirmə tədbirləri çərçivəsində fəaliyyətini davam etdirməklə bu istiqamətdə metodiki tövsiyələr, kitablar, bukletlər və məlumat bülletenləri hazırlamaqla geniş oxucu auditoriyasına təqdim etmişdir.

Belə nəşrlərdən növbətisi olan Bülletendə Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə 2014-cü ildə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər, həmçinin Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin həmin dövr ərzində fəaliyyəti barədə ətraflı məlumatlar əks olunmuşdur.

**Zakir QARALOV**
***Azərbaycan Respublikasının Baş prokuroru,***
***I dərəcəli dövlət ədliyyə müşaviri***

# KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ HƏYATA KEÇİRİLƏN TƏDBİRLƏR

2014-cü ildə dövlət başçısı cənab İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq korrupsiyaya qarşı mübarizənin daha ciddi aparılması sahəsində bir sıra qanunverici və institusional tədbirlər həyata keçirilmişdir.

Belə ki, "Prokurorluq haqqında" və "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanunlarında dəyişikliklər edilməsi haqqında 14 fevral 2014-cü il tarixli qanunlar və həmin qanunların tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 17 mart 2014-cü il tarixli Fərman və Sərəncamları ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin adı dəyişdirilərək Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi adlanmış və Baş İdarə Prokurorluğun sisteminə daxil edilərək statusu artırılmaqla səlahiyyətləri daha da genişləndirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 24 iyul 2014-cü il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əsasnaməsinin və prokurorluq işçilərinin ümumi say tərkibinin təsdiq edilməsi haqqında"



Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 28 oktyabr tarixli 138 nömrəli Fərmanında dəyişikliklər edilərək Baş İdarə əməkdaşların ştat vahidi 100-dən 140-a çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 05 avqust 2014-cü il tarixli 671 və 672 nömrəli Sərəncamları ilə Kamran Əliyev Azərbaycan Respublikası Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi təyin edilməklə Baş İdarə rəisinə II dərəcəli dövlət ədliyyə müşaviri, Baş İdarə rəisinin müavinlərinə III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbələri verilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## K.B.Əliyevin Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi təyin edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin IV hissəsini rəhbər tutaraq **qərara alıram:**

**Kamran Bayram oğlu Əliyev** Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi təyin edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 avqust 2014-cü il
№ 671

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşlarına ali xüsusi rütbələrin verilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi **Kamran Bayram oğlu Əliyevə** II dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin.

**2.** Azərbaycan Respublikası Prokurorluğunun aşağıdakı əməkdaşlarına III dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin:

**Abbasov İlqar Rza oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi rəisinin müavini

**Nağıyev Əli Nağı oğlu** – Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi rəisinin müavini.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 5 avqust 2014-cü il
№ 672

Bundan əlavə, hesabat dövründə korrupsiyaya qarşı həyata keçirilmiş institusional tədbirlər çərçivəsində "ASAN" xidmət mərkəzlərinin fəaliyyətinin genişləndirilməsinin əhəmiyyəti xüsusi vurğulanmalıdır.

Belə ki, Azərbaycan Respublikası Prezidentinin imzaladığı 2014-cü il 11 fevral tarixli Fərmanla "ASAN xidmət" mərkəzlərində göstərilən hüquqi və elektron xidmətlərin dairəsi genişləndirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən yaradılan "ASAN xidmət" fəaliyyətə başladığı vaxtdan qarşısına qoyulan vəzifənin öhdəsindən layiqincə gələrək insanların etimadını doğrultmaqla dövlət xidmətlərinin göstərilməsi sahəsində müasir texnologiyaların tətbiqi ilə korrupsiya hallarının istisna edilməsinə, şəffaflığın, vətəndaş məmnunluğunun təmin edilməsinə nail olmuşdur.

2014-cü il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlərin davam etdirilməsi, normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətində şəffaflığın artırılması və bu sahədə dövlət siyasətinin həyata keçirilməsi məqsədi ilə "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası çərçivəsində bir sıra tədbirlər həyata keçirilmişdir.

Belə ki, "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 5.1-ci bəndində "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin dövlət orqanlarının informasiya sistemləri, məlumat bazaları və reyestrlərindən qanunvericilikdə müəyyən edilmiş qaydada, real vaxt rejimində istifadəsinin təmin etməsi üzrə tədbirlər görülməsi" nəzərdə tutulmuşdur.

Milli Fəaliyyət Planında qeyd olunan bəndin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Prezidentinin 17 oktyabr 2014-cü il tarixli 291 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 11 aprel tarixli 564 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Daşınar əmlakın rəsmi reyestrləri, onların tərtib edilməsi və aparılması Qaydaları"na "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi reyestrlərin elektron məlumatlarından real vaxt rejimində istifadə edir" məzmunlu 3.5-ci bənd, 17 oktyabr 2014-cü il tarixli 292 nömrəli Fərmanı ilə "Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 4 iyun tarixli 276 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemi haqqında Əsasnamə"yə "Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi reyestrlərin elektron məlumatlarından real vaxt rejimində istifadə edir" məzmunlu 12-1-ci bənd əlavə edilmişdir.



*Gəncə "ASAN xidmət" mərkəzi*

Hazırda Baş İdarə tərəfindən Milli Fəaliyyət Planına uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində fəaliyyətinin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi, digər dövlətlərin hüquq mühafizə orqanları və ixtisaslaşdırılmış antikorrupsiya qurumları ilə əməkdaşlıq əlaqələrinin qurulması, bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi istiqamətində addımlar atılmaqdadır.

# ƏMƏLİYYAT-AXTARIŞ SAHƏSİNDƏ FƏALİYYƏT

2014-cü il ərzində Əməliyyat və Əməliyyat təminatı şöbələrinə 584 müraciət daxil olmuşdur. Həmin müraciətlərin 137-i "Qaynar xətt" əlaqə mərkəzindən daxil olmuş, digər 447-i müraciət isə fiziki və hüquqi şəxslərin yazılı ərizələri olmuşdur.

Ötən ildə Əməliyyat şöbəsi tərəfindən 24 şəxs barəsində 21 cinayət işi başlanılmışdır. Bunlardan 12 şəxs barəsində 10 cinayət işi keçirilmiş əməliyyat tədbirləri nəticəsində, 11 cinayət işi isə araşdırma materialları əsasında başlanılmışdır.

Belə ki, Bakı şəhər sakininin Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciəti üzrə təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri həyata keçirilmişdir.

Özünü Bakı Slavyan Universitetinin müəllimi kimi təqdim edən Şəlalə Hüseynovanın Bakı şəhər sakinindən ona ali təhsil haqqında diplom təşkil edəcəyi adı ilə 8.0 min manat pul tələb edərək həmin məbləğin 3.700 manatını alıb, sonradan qalan 4.300 manatını alarkən cinayət başında yaxalanmasında şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq) və 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) maddələri ilə cinayət işi başlanmışdır.



*Şəlalə Hüseynovanın aldığı pul əskinasları*

Aparılmış əməliyyat tədbirləri zamanı Ş.Hüseynovanın yaşadığı mənzildən müxtəlif vətəndaşlara aid şəxsiyyət vəsiqələrinin surətləri, pasportlar, diplomlar, attestatlar, müvəffəqiyyət kitabçaları, hərbi biletlərin surətləri və istintaq üçün əhəmiyyət kəsb edən digər sənədlər aşkar edilərək götürülmüşdür.

Ş.Hüseynovaya Cinayət Məcəlləsinin 178.3.2, 310 və 320.1-ci maddələri ilə ittiham elən edilməklə cinayət işi baxılması üçün müvafiq məhkəməyə göndərilmişdir.

Bundan başqa, Baş İdarə tərəfindən özlərini həmin idarənin əməkdaşları kimi təqdim etmiş şəxslərin qanunsuz hərəkətlərə yol vermələri barədə Bakı şəhər sakininin müraciəti üzrə təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri həyata keçirilmişdir.



*Niyazi Məmmədovun kitabın içində gizlətdiyi pul əskinasları*

"Kölgəli İqtisadiyyat və Korrupsiya" və "İqtisadiyyat və Kölgə" qəzetlərinin müxbirləri vəsiqəsini əldə etmiş Niyazi Məmmədov, Rüstəm Rüstəmov və Sənan Ağayevin qabaqcadan əlbir olub cinayət əlaqəsinə girməklə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin nüfuzuna xələl gətirən hərəkətlərə yol verərək özlərini həmin idarənin əməkdaşları kimi təqdim etməklə paytaxtın Xətai rayonunda fəaliyyət göstərən Sağlamlıq Mərkəzinin nəzarətçisi Emil Hüseynovdan mərkəzin fəaliyyətinin dayandırılmaması müqabilində 500 manat məbləğində pul tələb edib həmin vəsaitin 200 manatını qabaqcadan alarkən cinayət başında yaxalanmalarında şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 178.2.1 (dələduzluq) və 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) maddələri ilə cinayət işi başlanmışdır.




*Niyazi Məmmədovun əldə etdiyi vəsiqə*

Niyazi Məmmədov, Sənan Ağayev və Rüstəm Rüstəmov iş üzrə Cinayət Məcəlləsinin həmin maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək məhkəmənin qərarı ilə barələrində həbs qətimkan tədbiri seçilmişdir. Cinayət işi üzrə ibtidai istintaq tamamlanaraq baxılması üçün müvafiq məhkəməyə göndərilmişdir.

Ucar rayon sakininin Ağcabədi Pedaqoji Kollecinin direktor əvəzi Sahib Hüseynovun qanunsuz hərkətlərə yol verməsi barədə Baş İdarəyə daxil olmuş müraciəti üzrə təxirəsalınmaz əməliyyat-istintaq tədbirləri həyata keçirilmişdir.

Kollecin direktor əvəzi Sahib Hüseynovun qış imtahan sessiyası zamanı imtahanlardan müvəffəq qiymətlər alması üçün ona müraciət etmiş 4-cü kurs tələbəsindən 450 manat məbləğində rüşvəti təhsil müəssisəsinin inzibati binasında vasitəçidən istifadə etməklə özü üçün alarkən cinayət başında yaxalanmasında və qeyd edilən əməli törətməsində şübhələr üçün əsaslar olduğundan fakta görə Cinayət Məcəlləsinin 311.1-ci (rüşvət alma) maddəsi ilə cinayət işi başlanmışdır.



*Sahib Hüseynovun rüşvət qismində aldığı pul əskinasları*

Aparılmış əməliyyat tədbirləri zamanı S.Hüseynovun üzərindən müxtəlif əskinaslarla ümumilikdə 5.432 manat nağd pul, xidməti otağına baxış zamanı kollecdə təhsil alan tələbələrin adları və soyadlarının qeyd edildiyi siyahı və qarşılarında pul məbləğləri yazılmış jurnal, 59 ədəd plastik ödəmə kartı və həmin kartlara aid açılmamış vəziyyətdə pin-kod vərəqləri, şəxsiyyət vəsiqələri, "Ədalət və Qanun" qəzetinin redaktoru işləməsi barədə özünə aid vəsiqə və digər sənədlər, eyni zamanda yaşadığı evdən istintaq üçün əhəmiyyət kəsb edən sənədlər aşkar edilərək götürülmüşdür.

S.Hüseynova Cinayət Məcəlləsinin 29,179.3.2, 308.1, 311.3.2, 311.3.3, 311.3.4 və 313-cü maddələri ilə ittiham elən edilməklə cinayət işi baxılması üçün müvafiq məhkəməyə göndərilmişdir.

Bakı şəhər sakininin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciəti üzrə təxirəsalınmaz əməliyyat tədbirləri həyata keçirilmişdir.

Belə ki, Bakı şəhəri Mənzil Kommunal Təsərrüfatı Departamentinin 117 saylı Mənzil Kommunal İstismar Sahəsinin rəisi Bəşir Bəşirov "Ekspress servis" MMC-nin direktoru Rövşən Muradovla əlbir olub Bakı şəhər sakininə məxsus mənzilin özəlləşdirilməsi üçün tələb olunan sənədlərin verilməsi müqabilində vəzifəli şəxs kimi xidməti səlahiyyətlərinin icrası ilə əlaqədar edəcəyi hərəkətlərə görə ondan qeyd edilən cəmiyyətin ofisində 2.000 manat məbləğində rüşvət alarkən cinayət başında yaxalanmışdır. Baxış zamanı B.Bəşirovun üzərindən daha 2.500 manat məbləğində pul aşkar edilərək götürülmüşdür.



*Bəşir Bəşirovun rüşvət qismində aldığı pul əskinasları*

B.Bəşirova Cinayət Məcəlləsinin 178.2.1, 178.2.3, 178.2.4, 311.1-ci, R.Muradova isə 178.2.1 və 178.2.4-cü maddələri ilə ittiham elən edilməklə cinayət işi baxılması üçün müvafiq məhkəməyə göndərilmişdir.

Bundan başqa, "Bakıenerjitikinti" Açıq Səhmdar Cəmiyyətinin əməkdaşının Baş İdarəyə daxil olmuş müraciəti əsasında təxirəsalınmaz əməliyyat tədbirləri həyata keçirilmişdir.

Belə ki, "Merac Holdinq" şirkətinin İdarə Heyətinin sədri Səbuhi Əliyev qulluq mövqeyindən istifadə edərək aldatma yolu ilə özgə əmlakını ələ keçirmək məqsədilə Zaqatala-Balakən bölgəsində baş vermiş təbii fəlakətdən zərər çəkən ailələr üçün nəzərdə tutulan yaşayış evlərinin tikintisinin aparılmasında subpodratçı kimi işləmək üçün "Bakıenerjitikinti" ASC-nin əməkdaşına guya tanıdığı vəzifəli şəxsin köməyi ilə inşa ediləcək 204 evin tikintisinin həmin cəmiyyətə həvalə olunacağını vəd edərək ondan bunun müqabilində hər ev üçün 120 manat olmaqla 24 min 480 manat pul istəyib həmin məbləğin 20 min manatını şirkətin ofisində alarkən cinayət başında yaxalanmışdır.

Faktla bağlı Cinayət Məcəlləsinin 178.3.2 (dələduzluq) və 312-1-ci (vəzifəli şəxsin qərarına qanunsuz təsir göstərmə) maddələri ilə cinayət işi başlanmışdır.

S.Əliyevin yaşadığı mənzilə baxış zamanı ayrı-ayrı vətəndaşlara aid şəxsiyyət vəsiqələri və hərbi biletlərin surətləri, tibbi arayışlar, yaşayış yeri və ailə tərkibi haqqında arayışlar, fotoşəkillər və iş üçün əhəmiyyət kəsb edən digər sənədlər aşkar edilərək maddi sübut kimi götürülmüşdür.



*Səbuhi Əliyevin aldığı pul əskinasları*

S.Əliyev Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda S.Əliyev tərəfindən törədilməsi ehtimal olunan digər cinayətlərin aşkar edilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Hesabat dövründə Baş İdarənin şöbələrindən daxil olmuş 51 əməliyyat tapşırığı və sorğu Əməliyyat və Əməliyyat təminatı şöbələri tərəfindən icra olunmuş, Əməliyyat təminatı şöbəsi tərəfindən 28 əməliyyat-texniki tədbir həyata keçirilmişdir.

Bundan başqa, axtarışı elan olunmuş 18 nəfər tutulub istintaq orqanına təhvil verilmiş, hazırda axtarışda olan 33 nəfərin tutulması istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# İBTİDAİ İSTİNTAQ SAHƏSİ

2014-cü il ərzində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq şöbəsində 459 cinayət işinin ibtidai araşdırması həyata keçirilmişdir ki, onlardan 180 cinayət işi Baş İdarə rəisi tərəfindən başlanılmış, 108 cinayət işi digər işlərdən ayrılmış, 42 cinayət işinin icraatı təzələnmiş, 37 cinayət işi Baş Prokurorluq vasitəsi ilə aidiyyəti orqanlardan daxil olmaqla icraata qəbul edilmiş, 92 cinayət işi isə 2013-ci ildən qalıq qalmışdır.

Həmin cinayət işləri əsasən mənimsəmə və israf etmə, rüşvət vermə (aktiv rüşvətxorluq), rüşvət alma (passiv rüşvətxorluq), vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, vəzifə səlahiyyətlərini aşma, səhlənkarlıq, vəzifə saxtakarlığı, saxta sənədlərdən istifadə etmə, vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, qulluq mövqeyindən istifadə etməklə dələduzluq və digər faktlarla əlaqədar olmuşdur.

2014-cü il ərzində İstintaq şöbəsi tərəfindən 336 şəxs barəsində 209 cinayət işinin istintaqı tamamlanaraq, onlardan 333 şəxs barəsində 206 cinayət işi baxılması üçün məhkəmələrə göndərilmiş, 3 şəxs barəsində 3 cinayət işi üzrə isə cinayət təqibinə xitam verilmişdir.

Həmin cinayət işlərindən 16 şəxs barəsində 9 iş rüşvət alma (passiv rüşvətxorluq), 5 şəxs barəsində 4 iş rüşvət vermə (aktiv rüşvətxorluq), 43 şəxs barəsində 22 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 6 şəxs barəsində 6 iş vəzifə səlahiyyətlərini aşma, 7 şəxs barəsində 4 iş vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə, 6 şəxs barəsində 3 iş vəzifə saxtakarlığı, 5 şəxs barəsində 4 iş səhlənkarlıq, 134 şəxs barəsində 79 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə, 95 şəxs barəsində 59 iş qulluq mövqeyindən istifadə etməklə dələduzluq, 14 şəxs barəsində 14 iş saxta sənədlərdən istifadə etmə, 2 şəxs barəsində 2 iş isə digər faktlarla əlaqədar olmuşdur.

İstintaqı tamamlanmış cinayət işlərindən ümumilikdə 205 şəxs barəsində 108 iş Ağır Cinayətlər Məhkəmələrinə, o cümlədən 143 şəxs barəsində 84 iş Bakı, 32 şəxs barəsində 8 iş Gəncə, 9 şəxs barəsində 4 iş Şəki, 21 şəxs barəsində 12 iş Lənkəran Ağır Cinayətlər Məhkəmələrinə, 128 şəxs barəsində 98 iş isə yerli şəhər (rayon) məhkəmələrinə göndərilmişdir.

Müqayisə üçün göstərmək olar ki, 2013-cü il ərzində məhkəmələrə göndərilmiş 201 cinayət işindən 3 şəxs barəsində 2 iş rüşvət vermə (aktiv rüşvətxorluq), 41 şəxs barəsində 16 iş rüşvət alma (passiv rüşvətxorluq), 66 şəxs barəsində 36 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 5 şəxs barəsində 4 iş vəzifə səlahiyyətlərini aşma, 8 şəxs barəsində 4 iş səhlənkarlıq, 124 şəxs barəsində 65 iş mənimsəmə və israf etmə, 1 şəxs barəsində 1 iş təbii qazın, elektrik və istilik enerjisini talama, 17 şəxs barəsində 7 iş qanunsuz sahibkarlıq, 2 şəxs barəsində 2 iş vergidən yayınma, 84 şəxs barəsində 51 iş dələduzluq, 16 şəxs barəsində 13 iş isə digər faktlarla əlaqədar olmuşdur.

**2013 və 2014-cü illərdə məhkəmələrə göndərilmiş cinayət işlərinin müqayisəsi aşağıdakı kimi olmuşdur:**






Göründüyü kimi 2013-cü illə müqayisədə hesabat dövründə rüşvət alma ilə əlaqədar istintaq olunan cinayət işlərinin sayı müəyyən qədər azalmışdır. Buna əsas səbəb korrupsiyaya qarşı mübarizə sahəsində "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti ilə yanaşı, sosial müdafiə və təhsil sahəsində həyata keçirilmiş kadr islahatları, şəffaflığın artırılması, o cümlədən bu sahələr üzrə 2014-cü il ərzində İdarəyə daxil olan müraciətlərin əsasən rüşvət tələbi ilə deyil, süründürməçiliklə və digər qanun pozuntuları ilə bağlı olmasıdır.

Eyni zamanda, 2013-cü illə müqayisədə 2014-cü ildə ibtidai araşdırması aparılmış cinayət işlərinin sayı 46, Baş İdarədə başlanılmış 17, icraatı ayrılmış 41, eləcə də icraatı təzələnmiş 3 cinayət işi artmışdır.

Bundan əlavə, 2014-cü ildə məhkəmələrə göndərilmiş cinayət işlərindən ağır cinayətlərə aid işlərin sayı 15 vahid artmış, yerli məhkəmələrə göndərilən cinayət işlərinin sayı isə ötən illə müqayisədə 10 vahid azalmışdır.

**Məhkəmələrə göndərilmiş cinayət işlərinə dair diaqram**




| | Məhkəməyə göndərilmiş c/işləri | Məhkəməyə verilmiş təqsirli şəxslər | Ağır Cinayətlər Məhkəməsinə göndərilmiş c/işləri | Ağır Cinayətlər Məhkəməsinə verilmiş təqsirli şəxslər | Rayon məhkəməsinə göndərilmiş c/işləri | Rayon Məhkəməsinə verilmiş təqsirli şəxslər |
|---|---|---|---|---|---|---|
| 2014 | 206 | 333 | 108 | 205 | 98 | 128 |
| 2013 | 201 | 367 | 93 | 208 | 108 | 168 |

2014-cü il ərzində icraata qəbul edilmiş cinayət işlərindən 17 cinayət işi Baş Prokurorluq vasitəsi ilə aidiyyəti orqanlara göndərilmiş, 39 cinayət işi isə digərlərinə birləşdirilmiş və hesabat dövrünün sonuna 116 cinayət işi qalıq qalmışdır.

Hesabat dövründə 53, o cümlədən 37 cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs müəyyən olunmadığına, 11 cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilməli olan 11 şəxs istintaqdan gizləndiyinə görə, o cümlədən onlardan 3 şəxs barəsində həbsli axtarış elan edilməklə, 3 şəxs barəsində 3 cinayət işi təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxsin olduğu yer müəyyən edilmədiyinə və 2 cinayət işi üzrə isə 2 təqsirləndirilən şəxsin Azərbaycan Respublikasından kənarda olması ilə əlaqədar icraat dayandırılmışdır.

Müqayisə üçün qeyd edilməlidir ki, 2013-cü il ərzində icraata qəbul edilmiş cinayət işlərindən 12 cinayət işi Baş Prokurorluq vasitəsi ilə aidiyyəti orqanlara göndərilmiş, 35 cinayət işi isə digərlərinə birləşdirilmiş və hesabat dövrünün sonuna 92 cinayət işi qalıq qalmışdır.

2013-cü ildə 41 cinayət işi üzrə, o cümlədən 22 cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs müəyyən olunmadığına, 15 cinayət işi üzrə təqsirləndirilən şəxs qismində cəlb edilməli olan şəxs istintaqdan gizləndiyinə, 4 cinayət işi üzrə isə təqsirləndirilən şəxsin Azərbaycan Respublikasından kənarda olması ilə əlaqədar icraat dayandırılmışdır. İstintaqdan gizləndiklərinə görə 15 cinayət işi üzrə 17 təqsirləndirilən şəxsin barəsində axtarış elan edilmişdir.

Korrupsiya cinayətləri və hüquqpozmalarının daha geniş əhatə etdiyi sahələrin müəyyənləşdirilməsinin mühüm əhəmiyyəti və bu məsələnin aktuallığı bir daha nəzərə alınaraq, 2013-2014-cü illər ərzində məhkəmələrə göndərilmiş cinayət işlərinin istintaq təcrübəsi zamanı sahələr üzrə müqayisəli təhlillə əldə edilmiş məlumatlar, son vaxtlar çoxmənzilli yaşayış binalarının inşa edilməsi və belə binalarda mənzillərin vətəndaşlara satılması sahəsində ciddi qanun pozuntuların, dələduzluq faktlarına yol verildiyi müəyyən edilmişdir.

| **№** | **Sahələr** | **2013-cü ildə məhkəməyə göndərilmiş cinayət işlərinin sayı** | **2013-cü ildə məhkəməyə göndərilmiş cinayət işləri üzrə təqsirləndirilən şəxslərin sayı** | **2014-cü ildə məhkəməyə göndərilmiş cinayət işlərinin sayı** | **2014-cü ildə məhkəməyə göndərilmiş cinayət işləri üzrə təqsirləndirilən şəxslərin sayı** |
|---|---|---|---|---|---|
| 1. | Sosial müdafiə | 4 | 16 | 3 | 14 |
| 2. | Əmlak Məsələləri üzrə Dövlət Komitəsi | 1 | 2 | 2 | 2 |
| 3. | Yerli icra hakimiyyəti | 6 | 8 | 7 | 7 |
| 4. | Bələdiyyə | 9 | 15 | 4 | 4 |
| 5. | Səhiyyə | 14 | 22 | 3 | 3 |
| 6. | Təhsil | 14 | 25 | 19 | 37 |
| 7. | Mətbuat | 3 | 3 | 2 | 5 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 8. | Mədəniyyət və turizm | 1 | 1 | 1 | 1 |
| 9. | Rabitə və İnformasiya | 1 | 1 | 3 | 4 |
| 10. | Bank | 18 | 38 | 18 | 69 |
| 11. | Azərenerji | 5 | 5 | 1 | 1 |
| 12. | Azəriqaz | 2 | 2 | 1 | 2 |
| 13. | Təbiətin mühafizəsi | 6 | 9 | 1 | 1 |
| 14. | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 2 | 3 | | |
| 15. | Milli Məclis | 0 | 0 | 1 | 2 |
| 16. | AMEA | | | 1 | 1 |
| 17. | Prokurorluq | 1 | 1 | 1 | 1 |
| 18. | Ədliyyə Nazirliyi | 2 | 2 | 8 | 8 |
| 19. | Daxili İşlər Nazirliyi | 1 | 1 | 2 | 3 |
| 20. | Məhkəmə | 1 | 2 | 1 | 1 |
| 21. | Vergilər | 1 | 3 | | |
| 22. | FHN | 4 | 6 | 1 | 1 |
| 23. | QHT | | | 1 | 1 |
| 24. | Kənd Təsərrüfatı | 2 | 3 | 4 | 8 |
| 25. | Özəl sektor | 56 | 111 | 60 | 70 |
| 26. | o cümlədən: Tikinti | | | 7 | 10 |
| 27. | və digər | 47 | 88 | 54 | 77 |
| | Cəmi: | 201 | 367 | 206 | 333 |

Bu səbəbdən qabaqlayıcı tədbirlərin görülməsi məqsədi ilə çoxmənzilli yaşayış binalarının tikilməsi üçün mənzil-tikinti kooperativlərinin istər yaradılması, istərsə də həmin mənzillərin satılması sahəsində problemlər və onların aradan qaldırılması yolları barədə konkret təklifləri əks etdirən müvafiq təqdimatlar hazırlanıb aidiyyəti qurumlara təqdim edilmişdir.

Göründüyü kimi 2013-cü illə müqayisədə 2014-cü ildə bələdiyyə, səhiyyə, təbiətin mühafizəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Fövqəladə Hallar Nazirliyi əməkdaşları ilə bağlı istintaq olunan cinayət işlərinin sayı müəyyən qədər azalmış, təhsil, kənd təsərrüfatı, özəl, o cümlədən tikinti sektorları üzrə isə işlərin sayı artmışdır.

2014-cü il ərzində məhkəmələrə göndərilmiş 206 cinayət işindən 171 iş maddi ziyanla əlaqədar olmuşdur.

Həmin işlər üzrə vurulmuş cəmi 76 165 041 manat ziyandan ibtidai araşdırma mərhələsində 54 885 691 manat və ya 72,06 % ödənilmişdir.

Belə ki, dövlət mülkiyyətinə vurulmuş cəmi 15 680 482 manat ziyandan ibtidai araşdırma mərhələsində 6 309 352 manat və ya 40,2 %, xüsusi mülkiyyətə vurulmuş cəmi 60 483 452 manat

ziyandan ibtidai araşdırma mərhələsində 48 575 232 manat və ya 80,3 %, bələdiyyə mülkiyyətinə dəymiş cəmi 1107 manat ziyandan ibtidai araşdırma mərhələsində 1107 manat və ya 100 % ödənilməsi təmin edilmişdir.

2014-cü il ərzində istintaqı başa çatdırılmış 2 cinayət işi üzrə 1 000 661 manat dəyərində əmlak üzərinə həbs qoyulması təmin edilmişdir.

Müqayisə üçün göstərmək olar ki, 2013-cü il ərzində məhkəmələrə göndərilmiş 201 cinayət işindən 150 iş maddi ziyanla əlaqədar olmuş, həmin işlər üzrə vurulmuş cəmi 40 091 659 manat ziyandan ibtidai araşdırma mərhələsində 17 236 480 manat və ya 42,9 % ödənilmişdir. 2013-cü il ərzində istintaqı başa çatdırılmış 3 cinayət işi üzrə 3 357 497 manat dəyərində əmlak üzərinə həbs qoyulması təmin edilmişdir.

## QABAQLAYICI TƏDBİRLƏR

2014-cü il ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 5 sentyabr 2012-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın 5.2-ci bəndinin icrası qaydasında müxtəlif sahələrdə xarakterik korrupsiya hüquqpozmalarının aradan qaldırılması üçün qabaqlayıcı tədbirlərə dair təkliflər hazırlanaraq aidiyyəti təşkilatlara göndərilmişdir.

Belə ki, Azərbaycan Respublikasının Mənzil və Mülki Məcəllələrinə əlavə və dəyişikliklər edilməsi barədə qanun layihəsi üzrə çoxmərtəbəli binalarda mənzil satışı zamanı şəffaflığın təmin edilməsi, nağd hesablaşmanın aradan qaldırılması, ictimai nəzarətin gücləndirilməsinə dair müddəaları özündə əks etdirən təkliflər hazırlanaraq Ədliyyə Nazirliyinə təqdim edilmişdir.



Ekologiya və təbii sərvətlərin mühafizəsi o, cümlədən ekoloji proqramların icrası sahəsində qarşıya qoyulmuş mühüm dövlət vəzifələrinin vaxtında və müvəffəqiyyətlə həyata keçirilməsi və bu sahədə xarakterik korrupsiya hüquqpozmalarının aradan qaldırılması məqsədi ilə müvafiq təşkilati və digər zəruri təkliflər hazırlanaraq Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təqdim edilmişdir.

Bundan başqa, Uşaq bağçalarının fəaliyyətində bir sıra xarakterik korrupsiya hüquqpozmalarının aradan qaldırılması üçün müvafiq təkliflər Bakı şəhər İcra Hakimiyyətinə təqdim edilmiş, İcra Hakimiyyəti tərəfindən bu sahədə mövcud pozuntuların aradan qaldırılması məqsədilə bir sıra müvafiq təşkilati və digər zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

Belə ki, qeyd olunan pozuntuların qarşısının alınması məqsədilə Bakı şəhər İcra Hakimiyyətinin tabeliyində olan məktəbəqədər təhsil müəssisələrinin və uşaq evlərinin rəhbərlərinə uşaqların qidalandırılması, təlim-tərbiyəsi və müəssisəslərin idarəedilməsi üzrə qanunvericiliyin tələblərinə riayət edilməsi ilə bağlı ciddi göstərişlər verilmiş, müəssisələrə baxışlar keçirilərək onların nəticələrinə uyğun nöqsanlara yol verildiyi müəyyən edilmiş bir sıra müəssisə rəhbərləri və məsul əmkdaşlar işdən azad edilmiş, onlarla rəhbər işçi və cavabdeh şəxs barəsində ciddi intizam tənbeh tədbirləri görülmüşdür.

Bundan əlavə, Bank sektorunda yol verilmiş korrupsiya hüquqpozmaları ilə əlaqədar Baş İdarəyə, o cümlədən 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlər üzrə müvafiq təhlillər aparılmışdır.

Təhlil nəticəsində bu sahədə korrupsiyaya şərait yaradan halların müəyyən edilməsi və onların aradan qaldırımasına dair təkliflərin hazırlanması təmin edilmişdir.

Hesabat dövründə iqtisadiyyatın müxtəlif sektorlarında çalışanların bir qisminin qeyri-qanuni işləməsi, yəni maaşlarının qeyri-leqal şəkildə verilməsi ilə bağlı pozuntulara yol verən fiziki və hüquqi şəxslərin qanunsuz əməllərinə qarşı mübarizə tədbirləri də davam etdirilmiş, bununla əlaqədar vətəndaşların əmək hüquqlarının pozulması, işə götürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi faktı üzrə konkret müraciətlərə dair müvafiq tədbirlərin görülməsi təmin edilmişdir.

Bu kateqoriyadan olan müraciətlər nəzarətdə saxlanılmaqla qanunvericiliyin tələblərinə müvafiq olaraq aidiyyatı üzrə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə göndərilmiş və qanun pozuntusuna yol vermiş şəxslər inzibati və intizam məsuliyyətinə cəlb edilmişlər.

Preventiv tədbirlər və təhqiqat şöbəsində aparılmış araşdırmalar nəticəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə bir daha təkrar törədilməməsi üçün müxtəlif dövlət qurumları və vəzifəli şəxslərə 14 təqdimat verilmişdir.

Belə ki, Qobustan rayon icra hakimiyyəti başçısının Yekaxana inzibati ərazi dairəsi üzrə nümayəndəsinin qanunsuz hərəkətləri ilə bağlı verilmiş təqdimata baxılaraq icra nümayəndəsi, TQDK-dan daxil olmuş material üzrə Ağdam rayon Təhsil şöbəsinin vəzifəli şəxslərinin qanunsuz hərəkətləri ilə bağlı verilmiş təqdimata baxılaraq İmamqulubəyli tam orta məktəbinin direktoruna şiddətli töhmət elan edilmişdir.

Habelə, Bakı şəhəri Xətai rayon Əhmədli bələdiyyəsinin sədrinin öz xidməti vəzifələrinin icrası ilə əlaqədar aşkar edilmiş vəzifə pozuntularının bir daha təkrar edilməməsi üçün müvafiq tədbirlər görülməsi məqsədi ilə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinin tələblərinə müvafiq olaraq Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Bələdiyyələrlə İş Mərkəzinə, Abşeron rayon Ceyranbatan qəsəbə Mənzil İstismar Sahəsinin işçiləri tərəfindən 6 il bundan əvvəl verilmiş saxta arayışa, o cümlədən Bakı şəhər Səbail rayon İcra Hakimiyyəti Başçısının Badamdar qəsəbəsi üzrə sabiq nümayəndəsi tərəfindən 10 il bundan əvvəl saxta sənəd hazırlanmasına görə aidiyyəti təşkilatlara təqdimatlar verilmişdir.

Ümumilikdə 2014-cü il ərzində Baş İdarədə müraciətlərə baxılması nəticəsində 119 vəzifəli şəxs intizam məsuliyyətinə cəlb edilmişdir.

İntizam məsuliyyətinə cəlb edilmiş 119 vəzifəli şəxsdən 45-i Səhiyyə Nazirliyinin, 21-i Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, 11-i yerli icra hakimiyyəti orqanlarının və digər dövlət qurumlarının əməkdaşlarından ibarət olmuşdur.

# MÜTƏXƏSSİSLƏRİN FƏALİYYƏTİ

2014-cü il ərzində Mütəxəssislər qrupu tərəfindən Baş İdarənin struktur qurumlarından təqdim edilmiş material və cinayət işləri üzrə müvafiq yoxlamalar aparılmışdır.

Belə ki, hesabat dövründə İstintaq şöbəsindən cinayət işləri üzrə yoxlamaların aparılması barədə məhkəmənin 8 qərarı, mütəxəssisin cəlb edilməsi haqqında müstəntiqin 24 qərarı, Preventiv tədbirlər və təhqiqat şöbəsindən mütəxəssis araşdırılmasının aparılması barədə 8 təqrir, Əməliyyat şöbəsindən mütəxəssis araşdırılmasının aparılması barədə 1 təqrir, Daxili təhlükəsizlik xidmətindən mütəxəssis araşdırılmasının aparılması barədə 3 təqrir, həmçinin ötən hesabat ilindən qalan 1 qərar və 1 təqrir Mütəxəssislər qrupunun icraatına daxil olaraq araşdırılmışdır.

2014-cü ildə Mütəxəssislər qrupu tərəfindən İstintaq şöbəsinin cinayət işləri üzrə yoxlamaların aparılması barədə məhkəmənin 6 qərarı, mütəxəssisin cəlb edilməsi haqqında müstəntiqin 17 qərarı, Preventiv tədbirlər və təhqiqat şöbəsinin mütəxəssis araşdırılmasının aparılması barədə 7 təqriri, Daxili təhlükəsizlik xidmətinin mütəxəssis araşdırılmasının aparılması barədə 4 təqriri (keçən ildən 1 qalıq daxil olmaqla), Əməliyyat şöbəsinin mütəxəssis araşdırılmasının aparılması barədə 1 təqriri icra edilmiş, 2015-ci ilin birinci yarımilinə məhkəmənin 2, müstəntiqin 8 qərarı qalıq qalmışdır.

Müqayisə üçün gösərmək olar ki, 2013-cü ərzində İstintaq şöbəsindən cinayət işləri üzrə yoxlamaların aparılması barədə məhkəmənin 9 qərarı, mütəxəssisin cəlb edilməsi haqqında müstəntiqin 10 qərarı, Preventiv tədbirlər və təhqiqat şöbəsindən mütəxəssis araşdırılmasının aparılması barədə 4 təqrir, Daxili təhlükəsizlik xidmətindən mütəxəssis araşdırılmasının aparılması barədə 1 təqrir Mütəxəssislər qrupunun icraatına daxil olmuş, bunlardan İstintaq şöbəsinin 9 məhkəmə və 9 müstəntiq qərarı, Preventiv tədbirlər və təhqiqat şöbəsinin 4 təqriri icra edilərək həmin şöbələrə göndərilmişdir.

# “QAYNAR XƏTT” ƏLAQƏ MƏRKƏZİNİN FƏALİYYƏTİ

01 yanvar – 31 dekabr 2014-cü il tarixlərdə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin “Qaynar xətt” əlaqə mərkəzinə - 5951 müraciət daxil olmuşdur ki, bunlardan 4945-i ilkin, 1006-ı isə təkrar müraciətdir. 4945 ilkin müraciətin 4609 (93,20%) - aidiyyəti üzrə nazirlik, komitə və digər təşkilatlara göndərilmiş, 42 (0,84%) ibtidai istintaqı aparılan cinayət işlərinə əlavə edilmiş, 294 (5,94%) - Baş İdarədə araşdırılmışdır. Daxil olmuş 21 müraciət üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanılmışdır.

Müqayisə üçün göstərmək olar ki, 2013-cü il ərzində “Qaynar xətt” əlaqə mərkəzinə 6149 müaraciət daxil olmuşdur ki, bunun 5311-i ilkin, 838-i isə təkrar olmuşdur. 5311 ilkin müraciətin 351-i (6,60%-i) Baş İdarədə araşdırılmış 4960-ı (93,40%-ı) aidiyyəti üzrə nazirlik, komitə və təşkilatlara göndərilməklə qanunla nəzərdə tutulmuş qabaqlayıcı və digər müvafiq tədbirlərin görülməsi təmin edilmişdir.



2013-cü ildə əlaqə mərkəzinə daxil olmuş 26 müraciət üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanılmışdır.

"Qaynar xətt" əlaqə mərkəzinə korrupsiya ilə əlaqədar olmayan məsələlərlə bağlı müraciət etmiş bir sıra vətəndaşlara hüquqları izah edilmişdir.

Daxil olmuş müraciətlər və onlara baxılmasının nəticələri üzrə aparılan təhlillər göstərir ki, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi istiqamətində dövlət başçısının rəhbərliyi altında həyata keçirilən qətiyyətli və düşünülmüş tədbirlər, eyni zamanda korrupsiya və rüşvətxorluq kimi neqativ halların qarşısının alınmasındakı "ASAN" xidmət mərkəzlərinin fəaliyyətinin genişləndirilməsinin, həmin mərkəzlərdə 4 milyonadək vətəndaşa göstərilən şəffaf xidmətlər nəticəsində məmur - vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında öz müsbət bəhrəsini verməkdədir.

Qeyd olunmalıdır ki, daxil olmuş müraciətlərin bir qismi müsbət həll edilərək vətəndaşların pozulmuş hüquqları bərpa edilmişdir.

Eyni zamanda, "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərlə bağlı Baş İdarədə aparılan araşdırmalar zamanı aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması məqsədi ilə müvafiq təşkilatlara təqdimatlar verilmiş, həmin təqdimatlara əsasən bir sıra işçilər intizam qaydasında cəzalandırılmış, aşkar edilmiş qanun pozuntularının aradan qaldırılması üçün zəruri tədbirlərin görülməsi təmin edilmişdir.

# KORRUPSİYAYA QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

*“Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr” mövzusunda keçirilmiş beynəlxalq konfrans*

30 iyun-01 iyul 2014-cü il tarixlərdə Azərbaycan Respublikasının Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyi ilə əlaqədar Azərbaycan Hökuməti və Avropa Şurası tərəfindən Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) və Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) iştirakçılığı ilə “Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr” mövzusunda yüksək səviyyəli beynəlxalq konfrans keçirilmişdir.




Tədbirdə dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın, mərkəzi icra hakimiyyəti orqanlarının, Baş Prokurorluğun, habelə ölkəmizin digər hüquq mühafizə qurumlarının, ali təhsil müəssisələrinin, QHT-lərin və beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin əməkdaşları iştirak etmişlər.

Konfransa Avropa Şurasına daxil olan 35 ölkədən və 13 nüfuzlu beynəlxalq təşkilatdan 130-dan çox nümayəndə, o cümlədən Türkiyə, Albaniya, Moldova, Xorvatiya, Gürcüstan, Monako və Lixtenşteynin baş prokurorları, Bosniya və Herseqovina, Albaniya, Xorvatiyanın ədliyyə nazirləri,

Fransa, Polşa, Litva, Makedoniya və Serbiyanın ixtisaslaşdırılmış antikorrupsiya qurumlarının rəhbərləri, Avropa Şurasının İnsan Hüquqları və Hüquqi Məsələlər üzrə Baş İdarəsinin direktoru, GRECO-nun prezidenti, IACA-nın icraçı katibi, Beynəlxalq Prokurorlar Assosiasiyasının (IAP) prezidenti, Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) baş katibi və digərləri qatılmışlar.

Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov konfransın açılış mərasimində çıxış edərək dövlət başçısının Avropa Şurası Parlament Assambleyasının iclasında korrupsiyaya qarşı mübarizənin ölkəmizin Nazirlər Komitəsinə sədrliyi dövründə əsas prioritetlərdən birini təşkil edəcəyini və Avropanın qabaqcıl ölkələrinin müsbət təcrübəsindən istifadənin beynəlxalq əməkdaşlığın mühüm istiqaməti olduğunu bildirdiyini diqqətə çatdırmışdır.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın sədri, akademik Ramiz Mehdiyev konfrans iştirakçılarını salamlamış, bir çox ölkənin korrupsiyaya qarşı mübarizə sahəsində yaxşı təcrübə qazandığını vurğulamışdır. Prezident Administrasiyasının rəhbəri ölkəmizdə də korrupsiyaya qarşı mübarizə sahəsində çox böyük təcrübə qazanıldığını, Azərbaycan Prezidentinin Sərəncamı ilə mühüm qurumların yaradıldığını bildirmişdir. Akademik Ramiz Mehdiyev bu qurumlar arasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, dünyada nadir təcrübə olan "ASAN" xidmətin əhəmiyyətini xüsusi vurğulamışdır. Sonra akademik Ramiz Mehdiyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin konfrans iştirakçılarına müraciətini diqqətə çatdırmışdır.



Habelə tədbirdə çıxış edən Avropa Şurasının İnsan Hüquqları və Hüquqi Məsələlər üzrə Baş İdarəsinin direktoru Filip Buoya, Avropa Şurasının GRECO-nun prezidenti Marin Mrçela, Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) dekanı və icraçı katibi Martin Kreutner konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycana öz təşəkkürlərini bildirərək korrupsiya və ona qarşı mübarizənin Avropa Şurasının və digər beynəlxalq qurumların gündəliklərində duran ən əsas məsələlərdən biri olduğunu bildirmişlər.



Azərbaycan Prezidenti Administrasiyasının hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın üzvü Fuad Ələsgərov çıxışında korrupsiyaya qarşı mübarizə Azərbaycanda dövlət siyasətinin prioritet istiqamətlərindən olduğunu bildirmişdir.

Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri, Beynəlxalq Antikorrupsiya Orqanları Assosiasiyasının (IAACA) vitse-prezidenti Fikrət Məmmədov "Azərbaycanda antikorrupsiya qanunvericiliyinin tətbiqi və onun məhkəmə-hüquq sisteminin səmərəliliyinin artırılmasında rolu" mövzusunda məruzə ilə çıxış etmişdir.

Həmçinin, qeyd edilən yüksək səviyyəli konfransda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev "Korrupsiyaya qarşı mübarizədə ixtisaslaşmış orqanlar: Azərbaycan təcrübəsi" mövzusunda çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər barədə ətraflı məlumat vermişdir.

Bundan başqa, 30 iyun 2014-cü il tarixdə Baş İdarə rəisi Kamran Əliyev “AzTV” telekanalının “Günün nəbzi” verilişində çıxış edərək “Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr” mövzusunda yüksək səviyyəli beynəlxalq konfrans haqqında məlumat vermişdir.




Konfransın iştirakçıları tədbir proqramı çərçivəsində “ASAN” xidmət Mərkəzində, Azərbaycan Respublikasının Ali Məhkəməsinin və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında tanışlıq səfərində olmuş, elə həmin gün Baş prokuror Zakir Qaralov ikigünlük konfransın işini yekunlaşdırdığını elan edərək səsləndirilən çıxışlarda və aparılan müzakirələrdə korrupsiyanın demokratik dəyərləri sarsıdaraq davamlı inkişafa və hüququn aliliyinə xələl gətirməsi, cəmiyyətin sabitliyi və təhlükəsizliyi üçün doğurduğu problemlərdən narahatlığın ifadə olunduğunu, bununla yanaşı, antikorrupsiya qanunvericiliyinin tətbiqi, korrupsiyaya qarşı mübarizə sahəsində qazanılmış müsbət nailiyyətlərin paylaşıldığını diqqətə çatdırmışdır.



Daha sonra konfransın yekunları ilə bağlı mətbuat konfransı olmuşdur. Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov tədbirdə müzakirə olunan məsələlərdən danışmış, mətbuat nümayəndələrinin suallarını cavablandırmışlar.

## BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsi (UNODC) ilə əməkdaşlıq

UNODC
United Nations Office on Drugs and Crime

9-10 sentyabr 2014-cü il tarixlərdə Avstriyanın paytaxtı Vyana şəhərində yerləşən Birləşmiş Millətlər Təşkilatının qərargahında İnterpol təşkilatının Anti-korrupsiya və Maliyyə Cinayətlərinə qarşı Mübarizə İdarəsi və Dünya Bankının Oğurlanmış vəsaitlərin qaytarılması təşəbbüsü (StAR) layihəsinin birgə iştirakçılığı ilə 5-ci İllik Konfransı və 11-12 sentyabr tarixlərində Birləşmiş Millətlər Təşkilatının Korrupsiya əleyhinə Konvensiyasının Əmlakın Bərpası üzrə İşçi Qrupunun 7-ci iclası keçirilmişdir.

100-dən artıq dövlətin ekspertlərinin və beynəlxalq təşkilatların nümayəndələrinin qatıldığı tədbirlərdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı şöbəsinin prokuroru Sahib İsmayılov iştirak etmişdir.

Konfransda əmlakın bərpası üzrə əldə edilmiş nailiyyətlər, qarşıda duran vəzifələr, kibercinayətkarlığa qarşı mübarizə, müsadirə edilmiş əmlakın dəyərinin qorunması və bu istiqamətdə istintaq sövdələşməsinin üstünlükləri ilə əlaqədar müzakirələr aparılmış, məruzələr söylənilmiş, Konvensiyanın əmlakın bərpasına dair 52-ci və cinayət yolu ilə əldə edilmiş əmlakın ötürülməsinin qarşısının alınması və aşkar edilməsinə dair 53-cü maddələrinin implementasiyası ilə əlaqədar müzakirələr aparmışlar.




1-3 oktyabr 2014-cü il tarixlərdə Vyana şəhərində BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsi (UNODC) və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) birgə təşkilatçılığı ilə “Korrupsiya və çirkli pulların yuyulmasına qarşı mübarizədə sərhədlərarası əməkdaşlıq” mövzusunda seminar keçirilmişdir.

ABŞ, Avstriya, Macarıstan, Litva, Sloveniya, Ukrayna, Özbəkistan, Türkmənistan, Gürcüstan və digər ölkələrin nümayəndələrinin və beynəlxalq təşkilatların ekspertlərinin qatıldığı tədbirdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı şöbəsinin rəisi Rövşən Əliyev iştirak etmişdir.




Seminar zamanı cinayət yolu ilə əldə olunmuş əmlakın izlənilməsi, aşkar edilməsi və bərpası, bu sahədə milli və beynəlxalq səviyyədə əməkdaşlıq, hüquqi yardımın göstərilməsi və sair məsələlər müzakirə edilmişdir.

13-15 oktyabr 2014-cü il tarixlərdə Vyana şəhərində BMT-nin Korrupsiyaya qarşı mübarizə üzrə Konvensiyasına Tərəf Dövlətlərin Konfransının İcraya Nəzarət Qrupunun 5-ci sessiyası keçirilmişdir.

Sessiyada Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin prokuroru Əmir Ocaqverdiyev və Preventiv tədbirlər və təhqiqat şöbəsinin prokuroru Heydər Məmmədov iştirak etmişlər.

Sessiya zamanı BMT-nin Korrupsiya əleyhinə Konvensiyası icmal prosesi çərçivəsində yaranan çətinliklər və müsbət təcrübələr barədə fikir mübadiləsi aparılmış, üzv dövlətlərin texniki yardım ehtiyacları müəyyənləşdirilmiş, Konvensiyanın icrasına nəzarət mexanizminin təkmilləşdirilməsi, habelə maliyyə və büdcələşmə məsələləri müzakirə edilmişdir.

10-12 dekabr 2014-cü il tarixlərdə Qazaxıstan Respublikasının Almatı şəhərində UNODC-nin Mərkəzi Asiya ölkələri üçün yeni işçi proqramının hazırlanması üzrə ekspert qrupunun görüşü keçirilmişdir.

Görüşdə Baş İdarənin İstintaq şöbəsinin mühüm işlər üzrə böyük müstəntiqi Elnur Cəfərov iştirak etmişdir.

Tədbir zamanı narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində metodologiyanın təkmilləşdirilməsi, prioritet istiqamətlər üzrə, o cümlədən korrupsiyaya qarşı mübarizə istiqamətində qarşılıqlı əməkdaşlığın inkişafı haqqında təqdimatlar keçirilmiş, iştirakçı ölkələrin milli təcrübəsi öyrənilmişdir.

11-12 dekabr 2014-cü il tarixlərdə Paris şəhərində UNODC, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Dünya Bankı və Beynəlxalq Şəffaflıq Təşkilatının dəstəyi ilə "Antikorrupsiya inkişafına dəstək: əməkdaşlığın inkişaf etdirilməsi sahəsində ən yaxşı təcrübələr" adlı simpozium keçirilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində ən qabaqcıl təcrübəyə malik olan 50-yə yaxın mühüm beynəlxalq təşkilatların məsul şəxsləri iştirak etdiyi tədbirdə Azərbaycan Respublikası Baş prokurorunun müavini – Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev çıxış edərək ölkə başçısının siyasi iradəsinə uyğun olaraq Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində aparılan qanunverici və institusional islahatlar, habelə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin potensialının gücləndirilməsi istiqamətində görülən tədbirlər, Baş İdarədə fəaliyyət göstərən "Qaynar Xətt" əlaqə mərkəzinin fəaliyyəti, beynəlxalq əməkdaşlıq, xüsusilə Baş İdarəsinin Litva Xüsusi İstintaq İdarəsi ilə birgə həyata keçirmiş olduğu "Tvininq" layihəsinin əhəmiyyəti, habelə korrupsiyanın qarşısının alınmasında önəmli rolu olan və Azərbaycan brendinə çevrilmiş "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti barədə məlumat vermişdir.

Simpozumun sonunda Azərbaycanda korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş qanunverici və instisuonal tədbirləri özündə əks etdirən bukletlər tədbir iştirakçılarına paylanmışdır.

## İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsi ilə əməkdaşlıq

Ötən dövrdə olduğu kimi 2014-cü il ərzində də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) ilə əlaqələr genişləndirilmiş, qurumun Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planına müvafiq olaraq Azərbaycan Respublikasına verilmiş tövsiyələrin icrası istiqamətində bir sıra mühüm addımlar atılmışdır. Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları mütəmadi olaraq həmin tövsiyələrin icrasını diqqətdə saxlamaqla təşkilatın tədbirlərində aktiv iştirak etmişlər.

Belə ki, 17 yanvar 2014-cü il tarixdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı tərəfindən ölkəmizin Üçüncü Dəyərləndirmə Raundunun birinci mərhələsini müvəffəqiyyətlə keçməsi ilə əlaqədar qəbul etdiyi hesabatın təqdimatı keçirilmişdir.



Təqdimat mərasimində OECD Katibliyinin Antikorrupsiya məsələləri üzrə baş müşaviri Olqa Savran və qurumun İstanbul Fəaliyyət Planının layihə rəhbəri Tetyana Xavanska, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, ölkəmizin OECD ilə milli əlaqələndiricisi Kamran Əliyev, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov, ATƏT, Avropa İttifaqı, Avropa Şurası və digər beynəlxalq təşkilatların Azərbaycandakı nümayəndəliklərinin məsul əməkdaşları, müvafiq dövlət qurumlarının, vətəndaş cəmiyyəti institutlarının və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirakı etmişlər.

17-19 fevral 2014-cü il tarixlərdə OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı tərəfindən Tacikistan Respublikasının 3-cü raund dəyərləndirilməsi çərçivəsində ekspertlərdən ibarət monitorinq qrupu həmin ölkədə dəyərləndirmə səfərində olmuşlar.

Ölkəmizdən ekspert qismində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı şöbəsinin rəisi Rövşən Əliyevin iştirak etdiyi monitorinq qrupunun dəyərləndirdiyi əsas istiqamətlər Tacikistan Respublikasının korrupsiyaya qarşı mübarizə siyasəti, korrupsiyanın kriminallaşdırılması, qarşısının alınması və bu sahədə görülmüş digər işləri əhatə etmişdir.

16-18 aprel 2014-cü tarixlərdə Paris şəhərində OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının 13-cü Monitorinq Görüşü keçirilmişdir.

Görüşdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı şöbəsinin rəisi Rövşən Əliyev və həmin şöbənin prokuroru Sahib İsmayılov iştirak etmişlər.




Monitorinq Görüşü zamanı həmçinin, Azərbaycanın və digər ölkələrin dövrü hesabatının dinlənilməsi, Tacikistan Respublikasının üçüncü raund dəyərləndirilməsinə dair hesabatı üzrə müzakirələr aparılmış, ekspertlər tərəfindən Tacikistanın hesabatına dair rəy və təkliflər verilmiş, müzakirə olunan məsələlərə dair münasibət bildirilmişdir.

8-10 oktyabr 2014-cü tarixlərdə Paris şəhərində OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planı çərçivəsində növbəti Monitorinq iclasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Elnur Musayev iştirak etmişdir.

10-11 dekabr 2014-cü il tarixdə OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsinin 4-cü regional seminarı keçirilmişdir.

Seminarda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi rəisinin müavini Əli Nağıyev və Baş İdarənin Əməliyyat şöbəsinin mühüm işlər üzrə böyük əməliyyatçısı Fuad Rəsulov iştirak etmişlər.

Tədbirdə "Korrupsiya və xarici rüşvətxorluq üçün hüquqi şəxslərin məsuliyyəti" mövzusunda istintaq və cinayət təqibi təcrübəsinin bölüşməsi ilə əlaqədar müzakirələr keçirilmişdir.

## Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) ilə əməkdaşlıq

Hesabat dövrü ərzində Beynəlxalq Antikorrupsiya Akademiyası (IACA) ilə əməkdaşlıq genişləndirilmişdir.

3-12 iyul 2014-cü il tarixlərdə Avstriya Respublikasının Laksenburq şəhərində yerləşən IACA-da "Təcrübə elmlə qovuşur" mövzusunda sayca 4-cü Yay Akademiyası (IACSA) keçirilmişdir.

Dünyanın 50-dən artıq dövlətindən 65 nümayəndənin iştirak etdiyi Yay Akademiyasında ölkəmizi Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı şöbəsinin prokurorları Sahib İsmayılov və Samir Mahmudov təmsil etmişlər.

Tədbirdə bir sıra mötəbər elm və araşdırma mərkəzlərinin professorları, habelə beynəlxalq təşkilatların və şirkətlərin rəhbər şəxsləri və ekspertləri transmilli cinayətkarlığın ən təhlükəli növü hesab edilən korrupsiyanın yaranma səbəbləri, onun qarşısının alınmasında innovativ mübarizə üsulları, qabaqlayıcı tədbirlər, bu sahədə qarşılıqlı beynəlxalq əməkdaşlığın rolu və digər mövzularda məruzələr söyləmişlər.




Kurslarda tədbir iştirakçıları işçi qruplarına bölünməklə praktiki tapşırıqların həll olunmasında aktiv iştirak etmiş, hər qrup tərəfindən mövzu üzrə təqdimatlar keçirilmiş, habelə interaktiv şəkildə keçirilən təlim zamanı tədbir iştirakçılarını maraqlandıran suallar ekspertlər tərəfindən cavablandırılmışdır.

Azərbaycan təmsilçilərinin iştirak etdiyi qrup müvafiq tapşırıqların həllində xüsusi fəallıq göstərdiyinə görə Akademiyanın mükafatı ilə təltif olunmuşdur. Tədbirin sonunda iştirakçılara Yay Akademiyasını müvəffəqiyyətlə bitirmələrinə dair sertifikatların təqdim olunma mərasimi keçirilmişdir.

14-18 iyul 2014-cü il tarixlərdə IACA-da "Yerli idarəetmə və bələdiyyə orqanlarında korrupsiyaya qarşı mübarizə" adlı 5 günlük təlim keçirilmişdir.

Dünyanın 15-dən çox ölkəsindən 21 nümayəndənin təmsil olunduğu seminarda Baş İdarənin Əməliyyat təminatı şöbəsinin mühüm işlər üzrə əməliyyatçısı Məftun Abbasov iştirak etmişdir.

Seminarda korrupsiyaya qarşı mübarizə sahəsində dünyanın aparıcı mütəxəssislərindən hesab olunan Robert Klitgaard ve Boliviya Respublikasının Maliyyə və Xarici işlər naziri

vəzifələrində işləmiş Robert Maklauren tərəfindən onların bu sahədə təcrübələrinə dair mühazirələr söylənilmiş, habelə yerli idarəetmə orqanlarında korrupsiyanın qarşısının alınması, bu sahədə müvəffəqiyyət əldə etmiş ölkələrin təcrübəsi öyrənilmişdir.

2014-cü ildə Baş İdarənin böyük prokuroru Elnur Musayev və Əməliyyat təminatı şöbəsinin mühüm işlər üzrə əməliyyatçısı Məftun Abbasov IACA-nın magistraturasına qəbul olunaraq təhsillərini davam etdirirlər.

19-21 noyabr 2014-cü il tarixlərdə Bakı şəhərində IACA üzvü və iştirakçısı olan dövlətlərin Assambleyasının 3-cü sessiyası keçirilmişdir.




43 ölkədən 130-dan çox nümayəndə, o cümlədən Avropa Şurasının, Avropa İttifaqının, Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupunun (GRECO), Avropa Komissiyasının Dələduzluqla mübarizə üzrə Avropa bürosunun (OLAF), müstəqil antikorrupsiya qurumlarının rəhbərləri, ədliyyə və daxili işlər nazirlərinin iştirak etdiyi tədbirdə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri, Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın üzvü Fuad Ələsgərov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tədbir iştirakçılarına təbrik məktubunu diqqətə çatdırmaqla şəffaflıq, açıq hökumət prinsipləri, elektron hökumət, innovativ yanaşmanın dövlət siyasətinin prioritet istiqamətlərindən olduğunu, o cümlədən dövlət xidmətlərinin göstərilməsində tətbiq edilən korrupsiyanı tam istisna edən xidmət modelinin digər ölkələr üçün uğurlu nümunə ola biləcəyini vurğulamışdır.

Sessiyanı giriş sözü ilə Beynəlxalq Antikorrupsiya Akademiyasının icraçı katibi Martin Kreutner açaraq Azərbaycanın IACA-ya qoşulduğu vaxtdan qurumun işində fəallığını bildirərək ölkəmizin bu mötəbər tədbirə ev sahibliyini təqdirəlayiq olduğunu qeyd etmişdir.




Tədbir iştirakçılarını salamlayan Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov regionun aparıcı dövləti olan, demokratik imicini gücləndirən Azərbaycanın Beynəlxalq Antikorrupsiya Akademiyası kimi nüfuzlu qurumun təşkilatçılığı ilə keçirilən tədbirə yenidən ev sahibliyi etməsinin hüquq ictimaiyyəti üçün əlamətdar hadisə olduğunu bildirmişdir.

Sessiyası zamanı Bolqarıstan Respublikasının vitse-prezidenti Marqarita Popovanın, Avropa Komissiyasının Dələduzluqla mübarizə üzrə Avropa Bürosunun (OLAF) baş direktoru Covanni Kesslerin və digər mötəbər qonaqların rəhbərlik etdiyi nümayəndə heyəti ilə səmərəli görüşlər keçirilmişdir.

Tailand Krallığı Milli Antikorrupsiya Komissiyasının prezidenti Panthep Klanaronqranın IACA-nın Assambleyasına bir illik sədrlik səlahiyyət müddətinin başa çatması ilə əlaqədar Assambleyanın sədri seçilmiş Baş prokuror Zakir Qaralov Assambleyaya rəhbərlik edəcəyi dövrdə əsas prioritetlərin Akademiyanın tədris müəssisəsi kimi ənənəvi yay kurslarının təşkili sahəsində fəaliyyətinin daha da inkişaf etdirilməsi, təşkilata üzv dövlətlərin sayının artırılması, qabaqcıl təcrübənin öyrənilməsi və bölüşdürülməsi məqsədilə keçirilən treninqlərin coğrafiyasının müxtəlif mövzular üzrə regional konfransların təşkili yolu ilə genişləndirilməsi, habelə korrupsiyanın ayrı-ayrı növləri üzrə istintaq metodikasını əks etdirən tövsiyələr və korrupsiyaya qarşı mübarizə

sahəsində maarifləndirici bələdçilərin hazırlanması olacağını qeyd etmişdir. Digər mühüm məsələ kimi, təşkilatın üzərinə düşən vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün tədris ocağının ianə və maliyyə mənbələrinin artırılması məqsədilə Azərbaycan Hökuməti tərəfindən Akademiyaya maddi dəstəyin verildiyini, eyni zamanda bu istiqamətdə müvafiq addımların gələcəkdə də atılacağına əminliyini ifadə etmişdir.



Sonda IACA Assambleyasının 3-cü sessiyasının Bakı Bəyannaməsi qəbul edilmişdir. Bəyannamədə korrupsiyanın qarşısının alınması və ona qarşı mübarizədə potensialın genişləndirilməsi üzrə birgə səylərin əhəmiyyəti qeyd edilib, qərarlılıq, milli və beynəlxalq səviyyədə təhsil, təlim vasitəsilə antikorrupsiya mühitinin qurulması təşəbbüslərinə tam dəstək vurğulanmışdır. Texniki innovasiyalar, müvafiq təhsil və təlim, səmərəli, faydalı və şəffaf ictimai xidmətlərin göstərilməsi, elmi tədqiqatların ictimai sektorda antikorrupsiya mühitinin formalaşmasında, korrupsiya cinayətlərinin qarşısının alınmasında vacibliyi diqqətə çatdırılmışdır.

Tədbir çərçivəsində Assambleyasının 3-cü sessiyasının iştirakçıları Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Bakıdakı 3 saylı "ASAN xidmət" mərkəzinin fəaliyyəti və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında yaradılmış şəraitlə tanış olumuşlar.

## Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) ilə əməkdaşlıq

Hesabat dövrü ərzində Avropa Şurasının Korrupsiyaya qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO) ilə əlaqələr genişləndirilmiş, qurumun Azərbaycan Respublikası dəyərləndirmə hesabatında verilmiş tövsiyələrin icrası istiqamətində bir sıra mühüm addımlar atılmışdır. Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları mütəmadi olaraq həmin tövsiyələrin icrasını diqqətdə saxlamış və zəruri tədbirlərin görülməsini təmin etmişlər.

24-28 mart 2014-cü il tarixlərdə Strasburq şəhərində GRECO-nun 63-cü plenar iclası keçirilmişdir.

İclasda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, Azərbaycanın GRECO-dakı nümayəndə heyətinin üzvü Kamran Əliyev iştirak etmiş, təşkilatın rəhbər şəxsləri ilə ölkəmizdə keçirilməsi nəzərdə tutulan "Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr" mövzusunda yüksək səviyyəli beynəlxalq konfransın gündəliyi və təşkilati məsələlərə dair ətraflı fikir mübadiləsi aparmışdır.

10-11 aprel 2014-cü il tarixlərdə Avstriyanın Laksenburq şəhərində GRECO və Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) birgə təşkilatçılığı ilə "Korrupsiyanın qarşısının alınması üçün parlament üzvlərinin, prokurorların və hakimlərin səlahiyyətlərinin artırılması: GRECO-nun iki il ərzində keçirdiyi 4-cü Raund dəyərləndirmələrindən irəli gələn istiqamətlər" mövzusunda konfrans keçirilmişdir.

Konfransda Azərbaycan Respublikası Milli Məclisinin üzvləri və Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Preventiv tədbirlər və təhqiqat şöbəsinin rəisi Vüqar Əliyev iştirak etmişdir.

15-18 aprel 2014-cü il tarixlərdə GRECO tərəfindən Azərbaycan Respublikasına 4-cü raund dəyərləndirmə missiyası həyata keçirilmişdir.

Tədbirlə əlaqədar GRECO təşkilatının ekspertləri Jim O'Keeffe, Georgi Rupçev, Dražen Jelenic, Helena Lisuçova və Lyubov Samoxina ölkəmizə işgüzar səfər etmişlər.

Dəyərləndirmə missiyasının həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidenti Administrasiyası və GRECO təşkilatı tərəfindən hazırlanmış gündəliyə uyğun olaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının Katibliyinin, Parlamentin və Məhkəmə-Hüquq Şurasının üzvlərinin, Konstitusiya Məhkəməsi, Ali məhkəmə və digər instansiya məhkəmələrinin hakimlərinin, müvafiq Nazirliklərin məsul əməkdaşlarının, ali təhsil müəssisələrinin müəllim heyətinin və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə çoxsaylı görüşlər keçirilmişdir.

16-17 iyun 2014-cü il tarixlərdə Strasburq şəhərində GRECO-nun 64-cü plenar iclası keçirilmişdir.

İclasda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev iştirak edərək Azərbaycan Respublikasının 2014-cü ilin 14 may tarixindən 6 ay müddətinə Avropa Şurasının Nazirlər Komitəsində sədrliyi ilə əlaqədar Bakı şəhərində Avropa Şurası ilə birlikdə və GRECO və IACA-nın iştirakçılığı ilə keçiriləcək Avropa Şurasına üzv ölkələrin Baş

prokurorlarının, Ədliyyə nazirlərinin və müstəqil antikorrupsiya qurumlarının iştirakı ilə "Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr" mövzusunda yüksək səviyyəli beynəlxalq konfransa dair, habelə həmin tədbirdə müzakirə olunacaq mövzular, iştirak edəcək qonaqlar və digər təşkilati məsələlər barədə ətraflı məlumat vermiş, iştirakçıların suallarını cavablandırmışdır.

6-10 oktyabr 2014-cü il tarixlərində Strasburq şəhərində GRECO-nun 65-ci plenar iclası keçirilmişdir.

İclasda Baş İdarənin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov, Milli Məclisin deputatı Fuad Muradov, Məhkəmə-Hüquq Şurasının Aparat rəhbəri Cavid Hüseynov, Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Elnur Musayev iştirak etmişlər.

Tədbirdə Azərbaycanın 4-cü raund dəyərləndirməsi üzrə hesabat layihəsi dinlənilmiş, ölkəmizdə anti-korrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi, habelə Deputat, hakim və prokurorların fəaliyyətində korrupsiyanın qarşısının alınması ilə bağlı məsələlərə dair tövsiyyələr verilmişdir.

24-28 noyabr 2014-cü il tarixlərində GRECO-nun 63-cü Plenar İclasında qəbul edilmiş qərara əsasən "Deputat, hakim və prokurorların fəaliyyətlərində korrupsiyanın qarşısının alınması" mövzusu üzrə Serbiya Respublikasının 4-cü raund dəyərləndirməsi çərçivəsində ölkəmizdən ekspert qismində Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin böyük prokuroru Elnur Musayev monitorinq səfərində olmuşdur.

## Avropa İttifaqının Avropa Qonşuluq Siyasətinin "Şərq Tərəfdaşlığı" çərçivəsində əməkdaşlıq

28-29 yanvar 2014-cü il tarixlərdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində Avropa İttifaqının Avropa Qonşuluq Siyasəti çərçivəsində TAİEX (Texniki Yardım və İnformasiya Mübadiləsi) alətinin dəstəyi ilə "Hüquqi şəxslərin cinayət məsuliyyəti" mövzusunda keçirilən təlimdə İdarənin 25 nəfər əməkdaşı iştirak etmişdir.

Tədbirdə Belçika Krallığının Birinci instansiya məhkəməsinin hakimi Teo Bil, Böyük Britaniya Kral Prokurorluğunun Şotlandiya üzrə Ağır və Mütəşəkkil cinayətkarlıqla mübarizə ofisinin böyük prokurorları Natali Barkley-Styuart və Salli Klark korrupsiya və rüşvətxorluq cinayətlərinin transmilli aspektləri, korrupsiya cinayətləri ilə mübarizə sahəsində ölkələrinin təcrübəsi və bu sahədə qanunvericiliyin tətbiqi xüsusiyyətləri, hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb olunmasının hüquqi və praktiki tərəfləri barədə ətraflı məlumat verməklə təqdimatlar etmiş, bu sahədə istintaq edilmiş cinayət işlərindən nümunələr göstərmişlər.

8 iyul 2014-cü il tarixdə Belçika Krallığının paytaxtı Brüssel şəhərində Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığı çərçivəsində korrupsiyaya qarşı mübarizə üzrə panelin 6-cı görüşü keçirilmişdir.

Görüşdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Əməliyyat şöbəsinin mühüm işlər üzrə böyük əməliyyatçısı Fuad Rəsulov iştirak etmişdir.

Avropa İttifaqına üzv və Şərq Tərəfdaşlığı ölkələrinin nümayəndələrinin iştirak etdiyi görüşdə Aİ-nin ilk Anti-korrupsiya hesabatı təqdim edilmiş, Şərq Tərəfdaşlığı ölkələrinin korrupsiyaya qarşı mübarizədə əldə etdiyi nailiyyətlər və qarşıda duran vəzifələr barədə müzakirələr aparılmışdır.

Tədbirdə çıxış edən Fuad Rəsulov cari ilin 30 iyun-01 iyul tarixlərində keçirilmiş korrupsiyaya qarşı mübarizəyə həsr olunmuş Beynəlxalq Bakı konfransı barədə iştirakçılara ətraflı məlumat vermişdir.

## Beynəlxalq Prokurorlar Assosiasiyası ilə əməkdaşlıq

Yola saldığımız ildə Azərbaycan Respublikası Baş Prokurorluğunun və Hərbi Prokurorluğun təşkilati üzvü və iki yüzdən artıq prokurorluq əməkdaşının fərdi üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP) ilə qarşılıqlı əlaqələrin inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

21-24 yanvar 2014-cü il tarixlərdə IAP-ın baş müşaviri, Böyük Britaniya Krallığının böyük prokuroru xanım Elizabet Hou ölkəmizdə işgüzar səfərdə olmuşdur.



Səfər çərçivəsində xanım Elizabet Hou Azərbaycan Respublikasının Baş prokuroru Zakir Qaralov ilə görüşmüşdür. Görüşdə qonağa son illər Azərbaycan Prezidenti İlham Əliyevin

rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən islahatlar, qanunverici və praktiki tədbirlər, əldə olunan nailiyyətlər, həmçinin ölkəmizin “Transparency International” təşkilatının illik hesabatına əsasən əhəmiyyətli irəliləməsi, habelə OECD-nin qəbul etdiyi hesabata əsasən 3-cü raund dəyərləndirilməsindən müvəffəqiyyətlə keçən ilk dövlət olması barədə ətraflı məlumat verilmişdir.

Səfər zamanı xanım Elizabet Hou Azərbaycan brendi olan “ASAN” xidmət mərkəzində tanışlıq səfərində olmuşdur.

26-28 mart 2014-cü il tarixlərdə Xorvatiya Respublikasının paytaxtı Zaqreb şəhərində Beynəlxalq Prokurorlar Assosiasiyasının “Avrova İttifaqına üzv ölkələrdə hüquq mühafizə sahəsində əməkdaşlıq: reallıq və mif” mövzusunda 14-cü Avropa Regional Konfransı keçirilmişdir.

Konfransda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı şöbəsinin prokuroru Sahib İsmayılov və Preventiv tədbirlər və təhqiqat şöbəsinin prokuroru Heydər Məmmədov iştirak etmişlər.

7-10 aprel 2014-cü il tarixlərində Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti və Avstriya Prokurorlar Assosiasiyasının Prezidenti Gerhard Yaroş nümayəndə heyəti ilə birlikdə ölkəmizdə işgüzar səfərdə olmuşdur.




Səfər çərçivəsində Baş prokuror Zakir Qaralov ilə görüş zamanı Gerhard Yaroşa Dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla həyata keçirilən islahatlar, qanunverici və praktiki tədbirlər, əldə olunan nailiyyətlər barədə ətraflı məlumat verilmişdir.

Bundan başqa, Gerhard Yaroş "ASAN" xidmət mərkəzinin fəaliyyəti ilə tanış olmuşdur.

8-10 may 2014-cü il tarixlərdə Kanadanın Kvebek şəhərində IAP İcraiyyə Komitəsinin növbəti yaz iclası keçirilmişdir.

Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin iştirak etdiyi iclasda rəhbər orqanların, o cümlədən təşkilatın Prezidentinin, Baş Katibinin və Baş Müşavirinin hesabatları dinlənilmişdir. Assosiasiyanın Prezidenti Gerhard Yaroş və Baş Müşaviri Elizabet Hou çıxışlarında 2014-cü ilin yanvar və aprel aylarında ölkəmizdə səfərdə olduqlarını və Assosiasiya ilə Azərbaycan arasında münasibətlərin kifayət qədər işgüzar səviyyədə qurulmasını bildirməklə Azərbaycanda prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi istiqamətində görülən işləri, o cümlədən müasir standartlar səviyyəsində inşa edilmiş Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin yeni inzibati binasında yaradılmış iş şəraitini və Baş İdarənin "Qaynar xətt" əlaqə mərkəzinin müsbət fəaliyyətini, məhkəmə infrastrukturunun təkmilləşdirilməsi çərçivəsində yeni məhkəmə komplekslərinin istifadəyə verilməsini, həmçinin korrupsiyaya qarşı mübarizə vasitəsi kimi "ASAN xidmət" mərkəzlərinin uğurlu model olaraq digər ölkələrə nümunə ola biləcəyini xüsusi qeyd etmiş və aparılan islahatlardan məmnunluqlarını ifadə etmişlər.

23-27 noyabr 2014-cü il tarixdə Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində 120-yə yaxın dövləti birləşdirən Beynəlxalq Prokurorlar Assosiasiyanın İllik yığıncaqları, o cümlədən BPA-nın rəhbər orqanları olan İcraiyyə Komitəsinin və Senatın iclasları keçirilmişdir.



Tədbirlərdə ölkəmizi Assosiasiyanın fəxri üzvü və senatoru, ədliyyə naziri Fikrət Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti tərkibinə Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi, BPA-nın İcraiyyə Komitəsinin üzvü Kamran Əliyev, həmçinin Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Ruslan Hacıyev, Baş prokurorun köməkçisi Orxan İsayev, ədliyyə nazirinin köməkçisi Adil Əbilov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Azad Cəfərli təmsil etmişlər.

Konfransın açılışında Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) vitse-prezidenti, baş nazir, Dubay Əmirliyinin rəhbəri şeyx Məhəmməd bin Rəşid Al Maktum iştirak etmişdir.

Dünyanın 100-ə qədər dövlətindən 500-ə yaxın nümayəndənin, o cümlədən prokurorluq, məhkəmə, ədliyyə və digər hüquq-mühafizə orqanlarının rəhbər şəxslərinin qatıldığı bu mötəbər tədbirdə nümayəndə heyətimizin üzvləri tərəfindən fəal iştirak etmiş, dövlət başçısı cənab İlham Əliyevin qəti siyasi iradəsi ilə korrupsiyaya qarşı aparılan sərt mübarizə tədbirləri, əldə olunmuş nailiyyətlər xüsusi vurğulanmışdır.

Ümumi Yığıncaqda Azərbaycan nümayəndə heyətinin üzvü R.Hacıyev Assosiasiyanın işində fəal iştirakına görə BPA-nın Xüsusi Xidmətlər Sertifikatına layiq görülmüşdür.

## Dünya Bankı ilə əməkdaşlıq

8-10 dekabr 2014-cü il tarixlərində Amerika Birləşmiş Ştatların paytaxtı Vaşinqton şəhərində Dünya Bankının dəstəyi ilə Korrupsiyaya qarşı Mübarizə Aparan Təşkilatların Beynəlxalq Birliyinin (ICHA) 3-cü iclası keçirilmişdir.

İclasda 130-dan çox ölkəni təmsil edən korrupsiyaya qarşı mübarizə aparan ixtisaslaşdırılmış qurumların və istintaq orqanlarının 300-ə yaxın yüksək vəzifəli şəxsləri, habelə beynəlxalq təşkilatların nümayəndələri və ekspertləri təmsil olunduğu tədbirin korrupsiyaya qarşı mübarizədə hüquq mühafizə orqanlarının fəaliyyəti adlı sessiyasında Azərbaycan Respublikasının Baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev çıxış edərək ölkə başçısının siyasi iradəsinə uyğun olaraq Azərbaycan Respublikasında korrupsiyaya qarşı mübarizə sahəsində aparılan qanunverici və institusional islahatlar, habelə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin fəaliyyəti, beynəlxalq əməkdaşlıq, Azərbaycan Respublikasının Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik etdiyi dövrdə Korrupsiyaya Qarşı Dövlətlər Qrupu (GRECO) və Beynəlxalq Antikorrupsiya Akademiyasının (IACA) birgə səyləri ilə müvafiq olaraq cari ilin iyul və noyabr aylarında Bakı şəhərində keçirilmiş “Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr” mövzusunda konfransın və IACA-ya üzv və iştirakçı dövlətlərin Assambleyasının 3-cü sessiyası, "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti barədə məlumat vermişdir.

Tədbir çərçivəsində Dünya Bankının və Dələduzluqla mübarizə üzrə Avropa bürosunun (OLAF) yüksək rəsmiləri ilə iki tərəfli görüşlər keçirilmiş, qarşılıqlı əməkdaşlıq barədə müzakirələr aparılmışdır.

## Digər tədbirlər, seminar və dəyirmi masalarda iştirak

15 yanvar 2014-cü il tarixdə Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Komitəsi çərçivəsində Ədliyyə, azadlıq, təhlükəsizlik, insan hüquqları və demokratiya üzrə Alt Komitənin 3-4 fevral 2014-cü il tarixlərdə Brüsseldə keçiriləcək 4-cü iclasına hazırlıq məqsədilə Xarici İşlər Nazirliyində müvafiq dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə görüş keçirilmişdir.

Görüşdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı şöbəsinin rəisi Rövşən Əliyev iştirak etmişdir.

3-4 fevral 2014-cü il tarixlərdə Brüsseldə Avropa İttifaqı və Azərbaycan Əməkdaşlıq Komitəsi çərçivəsində Ədliyyə, azadlıq, təhlükəsizlik, insan hüquqları və demokratiya üzrə Alt komitənin dördüncü iclası keçirilmişdir.

İclasda Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin rəisi Rövşən Əliyev iştirak edərək son dövrlər korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə ətraflı məlumat vermiş, iştirakçıları maraqlandıran sualları cavablandırmışdır.

6 fevral 2014-cü il tarixdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində "Korrupsiyaya qarşı mübarizədə prokurorluğun rolu və əsas vəzifələri" mövzusunda seminar keçirilmişdir.

Seminarda Baş prokurorun birinci müavini Rüstəm Usubov, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının katibi Vüsal Hüseynov, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev, Baş İdarə əməkdaşları və rayon, şəhər və ərazi hərbi prokurorları iştirak etmişlər.



11 aprel 2014-cü il tarixdə Bakı şəhərində Azərbaycan Auditorlar Palatasında "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət planı"nın 13.2-ci bəndinə müvafiq olaraq "Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyası"nın (2012-2020-ci illər) təqdimatı keçirilmişdir.

Tədbirdə Baş prokuror yanında Baş İdarənin Daxili təhlükəsizlik xidmətinin rəisi Elşən Abbasov iştirak etmişdir.

24-25 aprel 2014-cü il tarixlərdə Ukrayna Respublikasının paytaxtı Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat - GUAM-ın Korrupsiya və çirkli pulların yuyulması ilə mübarizə üzrə işçi alt-qrupunun 10-cu iclası keçirilmişdir.

İclasda Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin prokuroru Samir Mahmudov iştirak etmişdir.

8-10 may 2014-cü il tarixlərdə Bolqarıstan Respublikasının Varna şəhərində BMT-nin dəstəyi ilə Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (BSEC) tərəfindən təşkilata üzv olan ölkələrin 18-30 yaş arasında gənc nümayəndələrinin iştirakı ilə regional konfrans keçirilmişdir.

Konfransda Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin prokuroru Samir Mahmudov iştirak etmişdir.

12-13 may 2014-cü il tarixlərdə San-Marinoda Avropa Şurasının Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin – MONEYVAL-ın işçi qrupunun iclası keçirilmişdir.

İclasda Baş İdarənin Preventiv tədbirlər və təhqiqat şöbəsinin böyük prokuroru Rəşid Mahmudov və Baş İdarənin böyük prokuroru Elnur Musayev iştirak etmişlər.

14-16 may 2014-cü il tarixdə İtaliya Respublikasının paytaxtı – Roma şəhərində “Qanunsuz vəsaitlərin aşkar olunması, tapılması və müsadirəsi”nə dair Ekspert İşçi Qrupunun birinci iclası keçirilmişdir.

İclasda Baş İdarənin rəis müavini İlqar Abbasov iştirak etmişdir.




02-06 iyun 2014-cü il tarixlərdə Polşa Respublikasının Varşava şəhərində korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumların nümayəndələri üçün Polşanın Korrupsiyaya qarşı mübarizə üzrə Mərkəzi Bürosu və Litva Respublikasının Xüsusi İstintaq Xidməti (STT) tərəfindən kurs təşkil olunmuşdur.

Tədbirdə Baş İdarənin Preventiv tədbirlər və təhqiqat şöbəsinin böyük prokuroru Rəşid Mahmudov iştirak etmişdir.

23-27 iyun 2014-cü il tarixlərdə Sinqapurda korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumların nümayəndələri üçün Sinqapur İnkişaf Proqramı çərçivəsində həmin ölkənin Xarici İşlər Nazirliyi tərəfindən "Antikorrupsiya strateji kursu" mövzusunda seminar keçirilmişdir.

Seminarda Baş İdarənin Mütəxəssislər qrupunun rəhbəri Rəşid Mahmudov iştirak etmişdir.

15 iyul 2014-cü il tarixdə Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının Avropaya İnteqrasiyası üzrə Dövlət Komissiyası çərçivəsində təsis edilmiş Hüquqi əməkdaşlıq, insan hüquqları və demokratikləşdirmə məsələləri üzrə işçi qrupunun ilk iclası keçirilmişdir.

İclasda Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin rəisi Rövşən Əliyev iştirak etmişdir.

18-21 sentyabr 2014-cü il tarixlərdə Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokurorunun müavini Mehmet Ekmekçinin rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizdə işgüzar səfərdə olmuşdur.

Səfər zamanı nümayəndə heyəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində olaraq qonaqlara Baş İdarənin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilməklə qarşılıqlı fikir mübadiləsi aparılmış, habelə gələcək əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

24-25 sentyabr 2014-cü il tarixlərdə Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsində sədrliyi çərçivəsində Bakı şəhərində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə "İnsan hüquqları və qabaqcıl idarəetmə kontekstində dövlət xidmətlərinin göstərilməsi" mövzusunda beynəlxalq konfrans keçirilmişdir.

Konfransda Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı şöbəsinin rəisi Rövşən Əliyev iştirak etmişdir.

25-26 sentyabr 2014-cü il tarixlərdə Tacikistanın paytaxtı Düşəndə şəhərində Müstəqil Dövlətlər Birliyinin Baş Prokurorlarının Əlaqələndirmə Şurasının növbəti iclası keçirilmişdir.

Tədbirdə ölkəmizi Baş prokurorun müavini – Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin rəisi Ruslan Hacıyev və həmin idarənin prokurorları təmsil etmişlər.

Rusiyanın Baş Prokurunun müavininin, Belarusiyanın, Tacikistanın, Kazaxstanın, Qırğızıstanın Baş prokurorlarının iştirak etdiyi iclasda prokurorların əsas fəaliyyət istiqamətini təşkil edən cinayətkarlıqla mübarizə, insan hüquqlarının müdafiəsi, habelə korrupsiayaya qarşı mübarizə sahəsində qarşılıqlı fikir mübadiləsi aparılmaqla, bu sahədə gələcək əməkdaşlıq perspektivləri müzakirə edilmişdir.

29 sentyabr - 01 oktyabr tarixlərdə Strasburq şəhərində Azərbaycanda cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə (PY/TMM) qarşı fəaliyyət sisteminin IV raund qiymətləndirilməsi üzrə hesabat layihəsinin ilkin müzakirəsi keçirilmişdir.

Müzakirələrdə Baş İdarənin Mütəxəssislər qrupunun rəhbəri Rəşid Mahmudov iştirak etmişdir.

Tədbirdə Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri Rüfət Aslanlının rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti ilə Avropa Şurasının Pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) qiymətləndirmə missiyası arasında ölkədə PY/TMM sahəsində mövcud vəziyyətin, Azərbaycan Hökumətinin həyata keçirdiyi tədbirlərin və əldə edilmiş inkişafların hesabatda obyektiv şəkildə əks olunması istiqamətində intensiv danışıqlar aparılmış və əsaslandırılmış faktlar təqdim edilmişdir.

01 oktyabr 2014-cü il tarixdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində 1 oktyabr - Prokurorluq işçilərinin peşə bayramı günü ilə əlaqədar prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində qarşıya çıxan aktual problemlərlə bağlı elmi-praktiki konfrans keçirilmişdir.




Konfransı giriş sözü ilə açan Baş prokuror Zakir Qaralov prokurorluq işçilərinin peşə bayramı gününü və milli prokurorluğun yaradılmasının 96-cı ildönümünü böyük ruh yüksəkliyi ilə qeyd etdildiyini, ulu öndər Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə 1 oktyabr tarixlinin prokurorluq işçilərinin peşə bayramı kimi qeyd edildiyini xüsusi vurğulamışdır.

Baş prokuror çıxışında ümummilli lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır məqamda xalqının təkidi ilə yenidən hakimiyyətə gəlişindən sonra həyata keçirdiyi yenidənqurma siyasətinin nəticəsi olaraq, digər dövlət təsisatları ilə yanaşı, Azərbaycan Prokurorluğunun da müasir, demokratik məzmunlu qurum kimi tamamilə yenidən

formalaşdırılmaqla dövlətçiliyimizin əsas sütunlarından birinə çevrildiyini, ölkəmizdə aparılan məhkəmə-hüquq islahatları çərçivəsində cəmiyyətdə statusuna uyğun yerini tutduğunu qeyd etmişdir.

09-10 oktyabr 2014-cü il tarixlərdə Ukrayna Respublikasının paytaxtı Kiyev şəhərində Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat-GUAM-ın Korrupsiya və çirkli pulların yuyulması ilə mübarizə üzrə işçi altı-qrupunun növbəti iclası keçirilmişdir.

İclasda Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin prokuroru Əmir Ocaqverdiyev və Daxili təhlükəsizlik xidmətinin prokuroru Faiq Rzayev iştirak etmişlər.

Gürcüstan, Moldova və Ukrayna dövlətlərin nümayəndələrinin iştirakı ilə keçirilmiş iclas zamanı qarışıqlı fikir mübadiləsi aparılaraq GUAM təşkilatının üzvü olan dövlətlərin Korrupsiyaya qarşı mübarizə, çirkli pulların yuyulması və bu növ cinayətin törədilməsində elektron ödəniş sistemlərinin və elektron pullarının istifadəsinin qarşısının alınması yolları müzakirə olunmuşdur.

13-28 oktyabr tarixlərində Malayziya Krallığının paytaxtı Kuala Lumpur şəhərində Malayziya Antikorrupsiya Komissiyasının Akademiyası tərəfindən "İxtisaslaşmış dürüst məmur" adlı Tədris Proqramı keçirilmişdir.

Proqramda Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin prokuroru Sahib İsmayılov iştirak etmişdir.




Tədbirin zamanı Malayziyanın, Böyük Britaniyanın, Avstraliyanın, Sinqapurun və mötəbər beynəlxalq təşkilatların korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış ekspertləri transmilli cinayətkarlığın ən təhlükəli növü hesab edilən korrupsiyanın yaranma səbəbləri, onun qarşısının alınmasında innovativ mübarizə üsulları, sözügedən ölkələrin bu sahədə müsbət təcrübəsi,

qabaqlayıcı tədbirlər, dövlət qulluqçuları üçün etik-davranış kodekslərinin əhəmiyyəti, maraqlar toqquşması və digər mövzularda məruzələr söyləmişlər.

20-24 oktyabr 2014-cü il tarixlərdə Polşa Respublikasının Varşava şəhərində korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumların nümayəndələri üçün Polşanın Korrupsiyaya qarşı mübarizə üzrə Mərkəzi Bürosu və Litvanın Xüsusi İstintaq Xidməti tərəfindən kurs təşkil olunmuşdur.

Tədbirdə Baş İdarənin Mütəxəssislər qrupunun rəhbəri Rəşid Mahmudov iştirak etmişdir.

Litva, Latviya, Estoniya, Avstriya, Rumıniya, Xorvatiya və Moldovadan olan 25-ə yaxın iştirakçının qatıldığı bu tədbiri Polşanın Korrupsiyaya qarşı mübarizə üzrə Mərkəzi Bürosunun direktoru cənab Pavel Voytunik açaraq, korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış qurumların rolundan danışdı. Daha sonra Litvanın Xüsusi İstintaq Xidməti (STT) və Latviyanın Antikorrupsiya Bürosunun (KNAB) əməkdaşları təmsil etdikləri qurumların strukturu, fəaliyyəti, əsas prioritetləri və son dövrləri əhatə edən statistik göstəricilər barədə məlumat vermişlər.

15 sentyabr - 05 dekabr 2014-cü il tarixlərdə Latviya Respublikasının Xarici İşlər Nazirliyinin və Korrupsiyanın qarşısının alınması və mübarizə Bürosunun (KNAB) dəstəyi ilə Riqa Ali Hüquq Məktəbində ixtisasartırma kursları keçirilmişdir.



Latviya Hökuməti tərəfindən maliyyələşdirilən Azərbaycan, Gürcüstan, Ukrayna, Moldova, Belarus, Özbəkistan, Qazaxıstan, Qırğızıstan və Tacikistandan olan hüquqşünaslar üçün nəzərdə tutulmuş kurslarda Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin prokuroru Samir Mahmudov iştirak etmişdir.

12 həftə ərzində davam etmiş intensiv kurslar zamanı yerli və xarici mütəxəssislər tərəfindən keçirilmiş nəzəri və praktiki məşğələlər nəticəsində, iştirakçılar hüquqi yazı, hüquqi danışıqların aparılması bacarıqlarını, habelə beynəlxalq cinayət hüququ, mülki hüquq, vergilərin hesablanması və digər zəruri sahələr üzrə biliklərini artıraraq, Avropa İttifaqının hüquq sistemi və anti-korrupsiya siyasətinin xüsusiyyətlərin öyrənilməsinə dair müvafiq təlimlər keçmişdirlər.

8-12 dekabr 2014-cü il tarixlərdə Strasburq şəhərində Avropa Şurasının Pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı tədbirlərin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) 46-cı plenar iclası keçirilmişdir.

İclasda Baş İdarənin Mütəxəssislər qrupunun rəhbəri Rəşid Mahmudov iştirak etmişdir.

Plenar iclas zamanı gündəliyə uyğun olaraq Azərbaycanda cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə (PY/TMM) qarşı fəaliyyət sisteminin effektivliyi üzrə növbəti qiymətləndirmə hesabatının müzakirəsi keçirilmişdir.

15-16 dekabr 2014-cü il tarixlərdə Türkiyə Respublikasının İstanbul şəhərində Türkiyə Respublikasının G20 üzrə sədrliyi başlaması ilə əlaqədar tədbir keçirilmişdir.

Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin rəisi Rövşən Əliyevin iştirak etdiyi tədbirdə energetika, məşğulluq, ticarət, iqtisadi inkişaf, anti-korrupsiya tədbirləri kimi məsələlər müzakirə edilmiş və qarşılıqlı fikir mübadiləsi aparılmışdır.

16-17 dekabr 2014-cü il tarixlərdə Batumi şəhərində Gürcüstan hökumətinin dəstəyi ilə, ATƏT katibliyi, BMT-nin Narkotiklər və Cinayətkarlığa qarşı Mübarizə İdarəsi və İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatının Antikorrupsiya Şəbəkəsi tərəfindən təşkil edilmiş “Korrupsiyanın qarşısının alınması” mövzusunda regional seminar keçirilmişdir.



Seminarda Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin prokuroru Samir Mahmudov təqdimatla çıxış edərək korrupsiyanın qarşısının alınması, şəffaflığın artırılması istiqamətində ölkəmizdə həyata keçirilən tədbirlər, hüquqi şəxslərin cinayət məsuliyyəti, istintaq sövdələşməsi və qanunsuz varlanma üzrə milli qanunvericilikdə edilən dəyişiklər haqqında tədbir iştirakçılarına ətraflı məlumat vermişdir.

17-19 dekabr 2014-cü il tarixlərdə Beynəlxalq Cinayət Polis İdarəsinin (İNTERPOL) təşkilatçılığı ilə Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində Qanunsuz vəsaitlərin aşkar olunması, müəyyənləşdirilməsi və müsadirəsinə dair Ekspert İşçi Qrupunun ikinci iclası keçirilmişdir.

İclasda Baş İdarənin Preventiv tədbirlər və təhqiqat şöbəsinin böyük prokuroru Heydər Məmmədov iştirak etmişdir.

Tədbirin işçi sessiyaları cinayət təqibi zamanı əmlakın izlənilməsi, bununla əlaqədar iş üçün əhəmiyyət kəsb edən sübutların toplanılması, habelə cinayət mühakiməsi xaricində əmlakın üzərinə həbsin qoyulması və müsadirə olunması, ölkə xaricində olan cinayət yolu ilə əldə olunan əmlakın üzərinə həbsin qoyulması kimi aktual məsələləri əhatə etmiş, problemli məsələlər öyrənilmiş və inkişaf tendensiyalarının müəyyən edilməsi istiqamətində müzakirələr aparılmışdır.

## QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI VƏ VƏTƏNDAŞ CƏMİYYƏTİ İNSTİTUTLARI İLƏ QARŞILIQLI ƏMƏKDAŞLIQ

04 aprel 2014-cü il tarixdə Bakı şəhərində "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyi tərəfindən "Ədalətli cəmiyyət naminə (Vətəndaşların dövlət orqanlarına müraciət etmək hüquqlarının təmin edilməsinə dəstək proqramı)" layihəsi tərkibində dəyirmi masa keçirilmişdir.

Dəyirmi masada Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin böyük prokuroru, II dərəcəli hüquqşünas Ramin Hüseynov iştirak etmişdir.

29 aprel 2014-cü il tarixdə "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi tərəfindən "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası ilə əlaqədar dəyirmi masa keçirilmişdir.

Dəyirmi masada Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin böyük prokuroru, II dərəcəli hüquqşünas Ramin Hüseynov iştirak etmişdir.

23 may 2014-cü il tarixdə Bakı şəhərində Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının dəstəyi və Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun təşkilatçılığı ilə "Korrupsiya və rüşvətxorlurluğa qarşı mübarizədə ictimai nəzarətin gücləndirilməsi və şəffaflığın artırılması" adlı tədbir keçirilmişdir.

Tədbirdə Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin böyük prokuroru, II dərəcəli hüquqşünas Ramin Hüseynov iştirak etmişdir.

12 dekabr 2014-cü il tarixdə Bakı şəhərində Beynəlxalq Mətbuat Mərkəzində "Şəffaflıq Azərbaycan" Korrupsiyaya Qarşı Mübarizə İctimai Birliyi tərəfindən "Çoxmənzilli binaların

qeydiyyatı sahəsində problemlərin həlli və şəffaflığın artırılması" mövzusunda dəyirmi masa keçirilmişdir.

Dəyirmi masada Baş İdarənin Təşkilati və informasiya təminatı şöbəsinin böyük prokuroru, II dərəcəli hüquqşünas Ramin Hüseynov iştirak etmişdir.

## MAARİFLƏNDİRMƏ SAHƏSİNDƏ TƏDBİRLƏR

2014-cü il ərzində Baş İdarənin əməkdaşları mütəmadi olaraq cinayətkarlığa, o cümlədən korrupsiyaya qarşı mübarizə sahəsinə dair keçirilmiş dəyirmi masalar, konfrans və seminarlar, ictimai dinləmələrdə iştirak etmişlər.




"AzTV" və "İctimai" televiziyada Baş İdarə tərəfindən həyata keçirilən uğurlu əməliyyat tədbirləri və istintaqı aparılan cinayət işləri barədə ictimaiyyətə mütəmadi məlumatlar verilmiş, Baş İdarə əməkdaşları "AzTV", "ANS" telekanallarında çıxışlar etmişlər.

17 yanvar 2014-cü il tarixdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən ölkəmizin Üçüncü Dəyərləndirmə Raundunu müvəffəqiyyətlə keçməsi ilə əlaqədar qəbul etdiyi hesabatın təqdimetmə mərasimi keçirilmiş, habelə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2013-cü il ərzində görülmüş işlərə dair hesabatla çıxış etmişdir. Mətbuat konfransında çıxış edən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyanın katibi Vüsal Hüseynov görülmüş işlər barədə ətraflı məlumat vermişlər.

30 iyun 2014-cü il tarixdə Baş İdarə rəisi Kamran Əliyev “Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr” mövzusunda yüksək səviyyəli beynəlxalq konfrans ilə əlaqədar “AzTV” telekanalının “Günün nəbzi” verilişində çıxış etmişdir.

Bundan başqa, 17 iyul 2014-cü il tarixdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi 2014-cü ilin I yarımili ərzində görülmüş işlərə dair hesabatla çıxış etmişdir. Vətəndaş cəmiyyəti institutlarının, kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdiyi rədbirdə Baş İdarə rəisi Kamran Əliyev görülmüş işlər barədə ətraflı məlumat vermiş, iştirakçıları maraqlandıran sualları cavablandırmışdır.

Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində maarifləndirmə tədbirləri çərçivəsində bülleten, buklet, kitablar, metodiki vəsaitlər hazırlanaraq nəşr edilmişdir.

Həmçinin, “Azərbaycan Respublikası Prokurorluğu” Jurnalının müvafiq nömrələri, 30 iyun-01 iyul 2014-cü il tarixlərdə Bakı şəhərində keçirilmiş “Korrupsiyaya qarşı mübarizə: beynəlxalq standartlar və milli təcrübələr” mövzusunda yüksək səviyyəli beynəlxalq konfransın materialları, blanklar və digər çap məhsullarının nəşr edilməsi təmin edilmişdir.




Bundan başqa, hesabat dövründə Baş İdarə tərəfindən istintaqı aparılan cinayət işləri, həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri, beynəlxalq təşkilatlarla əməkdaşlıq barədə kütləvi informasiya vasitələrində yayılması üçün məlumatlar hazırlanaraq Baş Prokurorluğun Mətbuat xidmətinə təqdim edilmişdir.

# E L A N

Azərbaycan Respublikası Baş Prokurorluğunun və Hərbi Prokurorluğun təşkilati üzvü və 250-dən artıq prokurorluq əməkdaşının fərdi üzvü olduğu Beynəlxalq Prokurorlar Assosiasiyası dünya prokurorlarını bir qurumda birləşdirən, onların ilk və yeganə beynəlxalq təşkilatı olmaqla 1995-ci ildə yaradılmışdır. Azərbaycan Respublikasının Baş Prokurorluğu yarandığı gündən bu təşkilata üzv olmaqla onunla səmərəli əməkdaşlığı həyata keçirir.

Bu təşkilatın üzvləri mütəmadi olaraq həmin quruma üzv olan dövlətlərdə həyata keçirilən islahatlar, müsbət iş təcrübəsi, prokurorluğun fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlara dair nəşrlərlə təmin olunmaq imkanına malikdirlər.

Ötən dövrdə Baş Prokurorluğun Assosiasiya ilə davamlı əməkdaşlığı çərçivəsində qurumun Prezidenti və digər rəhbər vəzifəli şəxslər ölkəmizdə işgüzar səfərlərdə olmaqla fərdi üzvlərlə bir sıra görüşlər keçirmiş, ikitərəfli əməkdaşlıq məsələləri barədə ətraflı fikir mübadiləsi aparmış, üzvləri maraqlandıran sualları cavablandırmışlar.

Beynəlxalq Prokurorlar assosiasiyasına üzvlük könüllülük prinsipi əsasında fərdi və kollektiv qaydada aparılır. Təşkilata illik fərdi üzvlük haqqı 50 ABŞ dolları təşkil edir.

Qeyd olunanlara əsasən prokurorluq əməkdaşlarından həmin təşkilata üzv olmaq istəyənlər əlaqələndirici şəxs Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin Təşkilati və informasiya təminatı idarəsinin prokuroru Samir Mahmudova (tel.: (012) 361-11-13, faks: 563-61-16, e-mail: s.mahmudov@prosecutor.gov.az) müraciət edə bilərlər.

Müraciət edən şəxslərdən iş yeri, vəzifəsi, əlaqə telefonu və elektron ünvanlarının qeyd olunması xahiş olunur.